www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 yanvar 2016-cı il Cümə № 15 (6336) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycan ordusu dünyanın ən güclüləri sırasında

yazısı səh.13-də

**Gündəm**

### Rusiyanın Ermənistanı xilas planı - həm də Bakının əli ilə?



Kremlin Tiflisə qaz ultimatumunun məkrli pərdəarxası -işğalçının energetik təminatında Azərbaycana aralıq ölkə rolu ayrıla bilər; növbəti mərhələdə Abxaziyadan keçən Moskva-İrəvan dəmir yolu işə salınacaq

yazısı səh.8-də

### Ev dustaqlığına buraxılan Məşədi Natiq mətbuata danışmır

yazısı səh.4-də

### İxtisar olunanlar narazı zümrəyə qoşularsa...

yazısı səh.12-də

### Mağazalar alıcıları aldadır - həm qiymətdə, həm də məhsulda...

yazısı səh.11-də

### Xədicə İsmayılı müdafiə edəcək vəkillə bağlı yeni iddialar

yazısı səh.3-də

### Gömrük liberallaşdı; bəs qiymətlər niyə ucuzlaşmır?

yazısı səh.11-də

### İlham Əliyevin Davos görüşləri

yazısı səh.4-də

### ABŞ-da benzin 16 qəpik oldu, bəs Azərbaycanda niyə ucuzlaşmır?

yazısı səh.15-də

### Ayaz Mütəllibov - Etibar Məmmədov davası-ağır ittihamlar

yazısı səh.9-da

### İsgəndər Həmidov müxalifəti birləşməyə çağırdı

yazısı səh.12-də

### "Palmali"nin direktoruna cinayət işi qaldırıldı

yazısı səh.14-də

## Sabiq nazir və həbsdəki qudası müflisləşdirilir

# ELDAR MAHMUDOVUN ƏMLAKLARI SATIŞA ÇIXARILIR-MİLYARDLAR ORTADA

Mahmudovların Avropadakı əmlakları, sadəcə, baha deyil, onların içərisindəki mebellərin, çıl-çırağın və qab-qacağın qiyməti bir neçə milyonu aşır; Cahangir Hacıyevin BƏƏ-də inşa edilmiş iki müəssisəsi də satışa çıxarılıb; ayyraım əvvəl sabiq nazirin oğlu istintaq qrupunun dörd əməkdaşının nəzarəti altında niyə ölkəni tərk edib?




yazısı səh.3-də

## Əli Abbasov ən yaxın adamını şantajda günahlandırdı: narahat deyilsə, niyə...

Sabiq nazir hələ İqtisad Universitetindən birgə işlədikləri işçisi haqda danışdı: "Vidadi Zeynalovdan belə bir şey gözləmirdim"

yazısı səh.10-da



*Aqil Abbas:*

### "Kiminsə alqışı ilə yaranmamışam ki, qarğışı ilə də ölüm"

yazısı səh.5-də



### Ruslar Elman Rüstəmovu təkzib edir: dollar 2 manat olacaq

yazısı səh.7-də



Teyfurə Əliyeva

### Jurnalistin anası oğlunu döyüb öldürənlərə ən ağır cəza istədi

yazısı səh.10-da



## İlham Əliyev İran prezidentinə zəng etdi

**Yanvarın 21-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev İran İslam Respublikasının prezidenti Həsən Ruhaniyə telefonla zəng edib. Virtualaz.org bildirir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin mətbuat xidməti məlumat yayıb.**

Dövlətimizin başçısı İrana qarşı tətbiq edilən sanksiyaların götürülməsi münasibətilə İran prezidentinə və xalqına təbriklərini çatdırıb və uğurlar arzulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan həmişə bu sanksiyaların əleyhinə olub və bununla bağlı rəsmi açıqlamalar verib. Azərbaycan prezidenti sanksiyaların götürülməsindən bir daha məmnunluğunu bildirib.

İran prezidenti Həsən Ruhani təbriklərinə və xoş sözlərinə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını çatdırıb və əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafı, enerji məsələləri, ölkələrimizin dəmir yollarının birləşdirilməsi, Astara-Astara dəmir yolu xəttinin çəkilişi, investisiya layihələrinin icrası və digər məsələləri müzakirə ediblər.



## Avropa Olimpiya Komitəsi Mehriban Əliyevaya orden verdi

**Avropa Olimpiya Komitəsi (AOK) yanvarın 21-də Azərbaycanın birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanı idmanın və Olimpiya hərəkatının inkişafına verdiyi töhfəyə hörmət əlaməti olaraq "Xidmətlərə görə orden" ilə mükafatlandırıb.**

Modern.az Avropa Olimpiya Komitəsinə istinadən məlumat verir.

Mehriban Əliyeva mükafatı AOK prezidenti Patrik Hikkidən qəbul edib.

Qeyd edək ki, Azərbaycanın birinci xanımı "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinə rəhbərlik edib, hazırda 2017-ci ildə Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədridir.

## BP "Bakı-Supsa" kəmərinə 150 milyon dollar yatıracaq

**Böyük Britaniyanın BP şirkəti Azərbaycandan Gürcüstana neft nəql edən Bakı-Supsa kəmərinin bəzi hissələrinin yenidən qurulmasına 150 mln. ABŞ dolları yatıracaq. Bu barədə APA " "Business Recorder" agentliyinə istinadən xəbər verir.**

Agentlik bildirir ki, bu məsələ İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda BP-nin baş icraçı direktoru Bob Dadli ilə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili arasında baş tutan görüşdə müzakirə olunub.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Leyla və Arif Yunusların səhhətində ciddi problemlər var

**Ötən ilin dekabrında azadlığa çıxan Sülh və Demokratiya İnstitutunun direktoru, hüquq müdafiəçisi Leyla Yunus və onun həyat yoldaşı Arif Yunusun səhhəti kritikdir.**

Bu barədə müsavat.com-a açıqlamasında Yunusların yaxın ailə dostu, həbsdə olduqları zaman onların ictimai vəkili olmuş psixoloq Azad İsazadə məlumat verdi.

Onun sözlərinə görə, cütlük müalicə alır və hər ikisinin səhhəti kritikdir. Belə ki, A.Yunusun təzyiqi yüksək qala-qala nəbzi enib: "Bu isə vəziyyətin çox kritik olduğunu göstərir. Təzyiqi normaya salmaq olmur. Bu da onu göstərir ki, ürək xəstəliyi ciddidir və onun üstünə düşmək lazımdır".

A.İsazadə dedi ki, L.Yunusun xroniki xəstəlikləri də şiddətlənib və müalicə gedir. Müsahibimizin sözlərinə görə, ancaq səhhətlərinin qeydinə qalan cütlük nə mətbuatla, nə də ictimaiyyətdən heç kimlə ünsiyyətə girmirlər: "Ancaq məhdud sayda dostları onlarla danışa bilir. Onlar da cəmi iki-üç nəfərdir".

Dekabrın 8-də Bakı Apelyasiya Məhkəməsi Leyla Yunus barəsində təyin olunan 8 il 6 ay,



Arif Yunus barəsində isə təyin olunan 7 il müddətində azadlıqdan məhrum etmə cəzası 5 il sınaq müddəti təyin olunmaqla şərti hesab olunub. Leyla Yunus məhkəmə zalından azadlığa buraxılıb.

Qərara əsasən, məhkəmənin Leyla və Arif Yunusların barəsində bəraət hökmü çıxarılmasına əsas görmədiyi elan olunub. Lakin qeyd olunub ki, onlar barəsində hökm dəyişdirilməlidir. Leyla Yunusun ittiham olunduğu Cinayət Məcəlləsinin 320-ci maddəsi ilə bağlı müddət keçdiyindən həmin maddə üzrə təyin olunan cəzalar hökmdən xaric olunub.

Eyni zamanda Arif Yunus barəsində 7 il müddətində azadlıqdan məhrum etmə cəzası 5 il sınaq müddəti təyin edilməklə şərti hesab olunub.

Məhkəmə Leyla və Arif Yunusların övladı Dinara Yunusa məxsus evin müsadirə olunması barədə qərarı da ləğv edib. Həmin gündən etibarən Yunuslar mediaya hər hansı açıqlama verməyib.



## Ermənilər Laçında yeni kənd salırlar

**Azərbaycanın işğal altındakı Laçın rayonunda Ariavan adlanacaq yeni kəndin tikintisi sürətlə davam edir.**

Modern.az saytı xəbər verir ki, Laçının müharibə zamanı dağıntılara məruz qalmış Zabux kəndinin yerində salınan yeni kənd ermənicə Ariavan adlanacaq və 50 evdən ibarət olacaq. Hazırda evlərdən 26-sı istifadə verilsə də, 24-nün tikintisi ilin sonuna qədər başa çatdırılacaq.

Paralel olaraq Ariavan kəndinə yeni yollar salınır və kanalizasiya, su xətləri çəkilir.

Ariavan kəndinin yaradılması fikri Livan ermənilərinə məxsusdur. Məhz onların yaratdığı "Ari" fondu Zabux kəndinin xarabalıqları üzərində salınan kəndin maliyyə xərclərini öz üzərinə götürüb.

Gələcəkdə evlərin sayı 150-yə çatdırılacaq və onlardan biri hissə Qarabağa köçən ermənilərə, qalanı isə satışa çıxarılacaq.

Qeyd edək ki, Laçın rayonunun Zabux kəndi Ermənistanın Gorus rayonu ilə həmsərhəd ərazisində yerləşir.

## QHT Şurasında layihələrə tətbiq olunacaq yeniliklər müzakirə edildi


Azay Quliyev

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında qurumun sədri Azay Quliyev və Katibliyin icraçı direktoru Fərasət Qurbanovun iştirakı ilə QHT layihələrini qiymətləndirən ekspertlərlə görüş keçirilib. Toplantıda məlumat verilib ki, 2016-cı ildə layihələrin dəyərləndirilməsi işində şəffaflığın daha yüksək dərəcədə təmin olunması üçün bir sıra yeniliklər tətbiq olunacaq. Şuranın cari ildəki maliyyə müsabiqəsində qeydiyyatdan keçən hər bir QHT-nin layihəsinə verilən ekspert rəyi və müvafiq bal ictimaiyyətə açıqlanacaq.**

1-ci mərhələdə layihələr Şura Katibliyinin əməkdaşları tərəfindən texniki seleksiyadan keçirilir. Burada məqsəd QHT-lərin təqdim etdikləri layihə sənədlərinin müsabiqə şərt və qaydalarına uyğunluğunu müəyyən etməkdir.

2-ci mərhələdə isə hər bir layihəyə 3 müxtəlif ekspert rəy verir. Bir ekspertin verdiyi bal digərinə bəlli olmur. Ekspertlər Şura Katibliyinin onlara təqdim etdiyi elektron kodlarla müvafiq hesablara daxil olaraq qiymətləndirmə prosesini həyata keçirirlər. Hər bir ekspert 7 istiqamət və 13 sual üzrə qiymətləndirmə aparır və layihələri 5 ballıq şkala üzrə dəyərləndirir. Bir layihə üzrə maksimum bal 65-dir. Ekspertlərin 40-dan yuxarı balla qiymətləndirdiyi layihələrin maliyyələşdirilməsi Şuranın müzakirəsinə təklif edilir.

3-cü mərhələdə isə şura hər bir layihə üzrə təqdim olunmuş ekspert rəyini, QHT-nin Şuranın maliyyə dəstəyi hesabına əvvəlki illərdə həyata keçirdiyi layihənin icra vəziyyətini və layihə idarəetmə təcrübəsini nəzərə alaraq yekun qərar qəbul edir. Müsabiqə nəticələri açıqlandıqdan sonra narazı qalan hər bir QHT-nin Şurasının Apelyasiya Komissiyasına müraciət etmək hüququ var.

Görüşdə bütün layihələrin yalnız ekspert rəylərinin nəticəsi əsas götürülərək qiymətləndiriləcəyi, hər hansı subyektiv yanaşmaya və kənar müdaxiləyə yol verilməyəcəyi vurğulanıb.

## Vahid Ələkbərov: "Neftin qiyməti 24 dollara düşsə…"

**LUKoil şirkətinin prezidenti Vahid Ələkbərov "Rossiya 24" telekanalına verdiyi müsahibədə bildirib ki, neftin 1 barelinin qiyməti 24 dollara düşəcəyi təqdirdə Rusiyada neft hasilatı sahəsində bir çox layihələr bağlana bilər.**

Virtualaz.org saytı bildirir ki, Vahid Ələkbərovun sözlərinə görə, 24 dollar ən aşağı mümkün olan həddir. "Analitika göstərir ki, bu həddən aşağı qiymət hətta fəaliyyətdə olan bir çox layihələrin dayandırılması deməkdir", - LUKoil prezidenti belə deyib.

Daha öncə Ələkbərov bildirmişdi ki, böhran dövründə inqilablar, islahatlar və vergi dəyişiklikləri etməyə dəyməz.

## Türkiyənin məşhur iş adamı qəfil öldü

**Türkiyənin məşhur iş adamı, "Koç Holding" İdarə Heyətinin sədri Mustafa Koç 56 yaşında ürək tutmasından vəfat edib.**

APA-nın Türkiyə xəbər agentliklərinə istinadən verdiyi məlumata görə, dünən səhər İstanbulda idmanla məşğul olarkən M. Koçun vəziyyəti pisləşib. O, təcili şəkildə ilk olaraq yaxınlıqdakı Beykoz Dövlət Xəstəxanasına aparılıb. Bir az sonra iş adamı helikopterlə özəl Amerikan Xəstəxanasına köçürülüb. Lakin həkimlərin 4 saat ərzində göstərdiyi bütün səylərə baxmayaraq, M. Koç yerli vaxtla saat 11.30-da ölüb.

M. Koç 1960-cı ildə Ankarada doğulub. Məşhur Koç ailəsinin 3-cü nəslinin nümayəndəsi və Rahmi Koçun böyük oğludur. İsveçrə və ABŞ-da təhsil alıb və Koç qrupunda 1984-cü ildən çalışmağa başlayıb. 2003-cü ildən bəri "Koç Holding"in rəhbəri idi. O, ənənəvi Bilderberq toplantılarının təşkilatçılarından biri olub. İki qızı var.

## Maşın idxalı 5 dəfə azalıb

**2015-ci ildə Gürcüstandan Azərbaycana 63 milyon 567.3 min dollar dəyərində 3 min 455 ədəd minik avtomobili ixrac olunub.**

Bu haqda APA Gürcüstan Statistika Xidmətinə istinadən məlumat yayıb. Bu, 2014-cü il illə müqayisədə 14 min 98 ədəd avtomobil və ya 5.08 dəfə azdır. Beləliklə, 2015-ci ildə Gürcüstandan ixrac olunan minik avtomobillərinin həcmi dəyər baxımından 4.21 dəfə azalıb.

Ötən il Gürcüstandan Azərbaycana ixrac olunan malların ümumi həcmində bu kateqoriyanın xüsusi çəkisi 26.44% olub. Gürcüstandan Azərbaycana ixrac olunan avtomobillərin həcmi bu ölkənin ümumi avtomobil ixracının 35.38%-ni təşkil edib.

## Yerpulu 10 faiz azaldıldı

**Yanvarın 21-də Babək prospektində yerləşən avtomobil ehtiyat hissələri satılan bazarda bir qrup sahibkar aksiya keçirib.**

Azadliq.org xəbər verir ki, onlar icarə haqqının azaldılmasını tələb edib. Sahibkarlar manatın yarıbayarı ucuzlaşmasından sonra alıcıların və gəlirlərinin azaldığını bildiriblər.

Elə dünən bazar rəhbərliyi icarə haqlarını 10 faiz azaldıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



# Xədicə İsmayılı müdafiə edəcək vəkillə bağlı yeni iddialar

## Amal Kluninin milli mənsubiyyəti ilə bağlı deyilənlər yalan çıxdı; **Əsabəli Mustafayev:** "Amal bu işi öz reklamı xətrinə görmək istəyir..."

**Xəbər verdiyimiz kimi, tanınmış vəkil, aktyor Corc Kluninin həyat yoldaşı Amal Kluni Avropa İnsan Hüquqları Məhkəməsində jurnalist Xədicə İsmayılı müdafiə edəcək. Xanım Kluni Amerikanın NBC kanalına müsahibəsində deyib ki, o, medianın hüquqi müdafiəsi təşəbbüsünü təmsil edən vəkillə birlikdə İsmayılovanın həbsinə etirazla Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edəcək.**

Bu xəbərin mübahisə doğuran tərəflərindən biri isə A.Kluninin kimliyi və daha önceki fəaliyyəti ilə bağlıdır. Belə ki, Türkiyə İşçi Partiyasının lideri Doğu Perinçəyin "erməni soyqırımı" məsələsi ilə bağlı İsveçrə, Ermənistan və Fransa ilə Avropa İnsan Haqları Məhkəməsindəki davasında Ermənistan hökumətinin vəkili və müdafiəçisi məhz A.Kluni olub. Onun eyni zamanda erməni əsilli olması da yayılan məlumatlar sırasındadır.

Amma onun milli mənsubiyyəti ilə bağlı deyilənlər media xəbərlərində özünü doğrultmur. Vikipediada yayılanlara görə, vəkil Amal Clooney-nin qız soyadı Amaluddun olub və Livandakı druz adlı azsaylı xalqın nümayəndəsidir. O, bir neçə tanınmış insanın, o cümlədən WikiLeaksin yaradıcısı Culian Assanjın, Ukraynanın sabiq baş naziri Yuliya Timoşenkonun və Misir mənşəli Kanada jurnalisti Məhəmməd Fəhminin vəkili olub. Uşaq yaşlarından valideynləri ilə birgə Beyrutu tərk edib və İngiltərədə yaşayır. Amalın anası Bariya Livan qəzeti "Əl Hayat"da beynəlxalq xəbərlər bölümünün rəhbəri olub. Zamanında Bill Klinton, Fidel Kastro və Toni Blerdən müsahibələr götürüb. Yəni rəsmi xəbərlərdə onun erməni olması ilə bağlı heç bir məlumat yoxdur və bu, həqiqətə uyğun deyil.

**Vəkil Əsabəli Mustafayev hesab edir ki, işə Böyük Palatada baxıldığı zaman Avropa Məhkəməsində xarici vəkilə ehtiyac yaranır:** "Çünki o zaman proses şifahi keçirilir. Xədicə xanımın işinə bölmənin palatasında baxıla bilər. Bu işlə isə onun indiki vəkilləri asanlıqla bacarar. Həm də Amalın iştirakını hökumət ayrı istiqamətlərə yozacaq. Mənə elə gəlir ki, Amal bu işi öz reklamı xətrinə



götürmək istəyir. Onda qoy öz vəkillərimiz reklam olunsunlar. Amal Avropa Məhkəməsində 2-3 iş aparıbsa, İntiqam Əliyev 200-ə yaxın iş göndərib. Buradan məlum olur ki, kim kimdən öyrənməlidir".

Bu arada Avropa Şurasının insan haqları komissarı Nils Muiznieks Xədicə İsmayılın işi ilə bağlı Avropa Məhkəməsinə xüsusi müdaxilə vəsatəti ilə müraciət edib. Vəsatət məktubunda bildirir ki, jurnalist Xədicə İsmayılın işi Azərbaycanda repressiyalara məruz qalmış başqa insan haqları müdafiəçilərinin işindən mahiyyətcə fərqlənmir. Məktubda insan haqları müdafiəçilərinə, müstəqil jurnalistlərə və vətəndaş cəmiyyəti üzvlərinə qarşı hücumlar ayrı-ayrı epizodlar üzrə geniş təsvir olunur, Azərbaycanda insan haqları fəalları üzərinə son iki ildə xüsusilə şiddətlənmiş hücumun ciddi narahatlıq doğurduğu bildirilir və bu hal "fenomen" adlandırılır.

İnsan haqları komissarı yazır ki, bu vəziyyətlə bağlı Azərbaycan hakimiyyətinə onun özü və digər Avropa strukturları tərəfindən dəfələrlə edilmiş çağırışlar qulaqardına vurulur və Azərbaycan hökuməti insan haqları fəallarının və müstəqil jurnalistlərin həbslərinin və məhkum edilməsinin peşə fəaliyyəti ilə bağlı olmadığını iddia edir. Komissar Azərbaycanın insan haqlarına dair öhdəliklərinə əməl etmədiyini birmənalı şəkildə bəyan edib.

Məktubda həmçinin deyilir ki, Azərbaycanda insan haqlarının vəziyyətinə dair Avropanın müxtəlif srtrukturları tərəfindən bəyanatlar və sənədlər qəbul edilsə də problemlər həll edilməmiş qalır. Vurğulanır ki, Azərbaycanda qanunlar ifadə azadlığının məhdudlaşdırılmasına xidmət edir və QHT-lərin fəaliyyəti ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklərin qüsurluluğu ilə insan haqları fəallarının həbsləri arasında əlaqə mövcuddur. O xatırladır ki, jurnalist fəaliyyətindən əlavə X.İsmayıl həm də Avropa Şurası insan haqları qurumlarının fəal partnyorlarındandır və məhbus edilməsi ilə bu "cəsarətli işinin bahasını ödəyir". Komissar hesab edir ki, İsmayılovaya qarşı irəli sürülmüş ittihamlar ədalətsizdir və onu susdurmaq məqsədi güdür.

Məktubda deyilir ki, Azərbaycan hakimiyyəti insan haqları müdafiəçilərinin üzərinə hücumlar etməklə, nəinki özünün beynəlxalq öhdəliklərini, eyni zamanda qanunun aliliyi prinsipini pozub, qeyd olunur ki, Azərbaycanda yaranmış vəziyyət bir komissar kimi onun da fəaliyyətini çətinləşdirib. O, Azərbaycan hakimlərini apardıqları işlərdə İnsan Haqları Konvensiyasını rəhbər tutmağa çağırır.

Sonda insan haqları komissarı bu qənaətdə olduğunu bildirir ki, Azərbaycanda insan haqları müdafiəçilərinin təqibinə son qoyulmalı və bu sahədə fəaliyyətlərinə görə həbs edilənlərin hamısı azadlığa buraxılmalıdır.

❑ Sevinc TELMANQIZI

# Sabiq nazir və həbsdəki qudası müflisləşdirilir

**Ötən ilin dekabrında həbs edilən Beynəlxalq Bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin və qudası Eldar Mahmudovun bütün əmlaklarına əl qoyulub və satışa çıxarılır. "Yeni Müsavat"ın məlumatına görə, MTN işi üzrə xüsusi istintaq qrupunun əlində sabiq nazir Eldar Mahmudovun həm ölkə daxilində, həm də xaricdə dəyəri 1 milyardı aşan əmlakının siyahısı var.**




# Eldar Mahmudovun əmlakları satışa çıxarılır-milyardlar ortada

## Mahmudovların Avropadakı əmlakları, sadəcə, baha deyil, onların içərisindəki mebellərin, çıl-çırağın və qab-qacağın qiyməti bir neçə milyonu aşır; Cahangir Hacıyevin BƏƏ-də inşa edilmiş iki müəssisəsi də satışa çıxarılıb; ayyraım əvvəl sabiq nazirin oğlu istintaq qrupunun dörd əməkdaşının nəzarəti altında niyə ölkəni tərk edib?

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ötən həftə keçirdiyi mətbuat konfransında MTN naziri ilə bağlı istintaq-əməliyyat tədbirlərinin Baş Prokurorluq tərəfindən aparılmadığını təsdiqləmişdi. "Yeni Müsavat" hələ aylar öncə yazmışdı ki, Eldar Mahmudovla bağlı istintaqı Xüsusi Dövlət Mühafizə Xidməti aparır.

Qaynağımız deyib ki, xüsusi istintaq qrupu Eldar Mahmudovu və onun ailə üzvlərini bir neçə dəfə dindirib. Əsas məqsəd isə MTN nazirin son 10 il ərzində sahibləndiyi mal-mülkün-bunların sırasında xarici bank hesabları da var-siyahısını müəyyənləşdirməkdir. İddia olunur ki, Eldar Mahmudovun oğlunun Londonda üzə çıxan 30 milyon funt-sterlinq (təxminən 48 milyon dollar) dəyərində mülkü, sadəcə, istintaq üçün bir "yem" kimi ortaya atılıbmış. Amma məlum olub ki, Mahmudovların daşınmaz əmlakının əsas hissəsi Avropanın digər ölkələrində, əsasən İspaniya və Çexiyadadır. Qaynağımız deyib ki, əmlaklar istisnasız olaraq Mahmudovlar ailəsinin üzvlərinin adına olduğu üçün onları üzə çıxarmaq xüsusi çətinlik yaratmayıb. Ayyarım əvvəl Mahmudovun oğlu istintaq qrupunun dörd əməkdaşının nəzarəti altında ölkəni tərk edib və siyahı üzrə araşdırma başlayıb. İstintaqdan məlumatlı şəxs deyib ki, Mahmudovların Avropadakı əmlakları, sadəcə, baha deyil, onların içərisindəki mebellərin, çıl-çırağın və qab-qacağın qiyməti bir neçə milyonu aşır. Xəbərə görə, hələ ki mülklər satışa çıxarılmır, içərisindəki inventarlar siyahılaşdırılır, hər tərəfi didik-didik axtarılır. Güman etmək olar ki, istintaq onlar üçün maraqlı olan hansısa kompromat materialları da axtarır. E.Mahmudovun Rusiyada tikinti biznesinin olduğu bildirilir. Bu bizneslə bağlı da bir müddətdir araşdırma başlayıb və bu işə Rusiya hüquq-mühafizə orqanlarının da ciddi dəstək verdiyi gələn xəbərlər sırasındadır.

Paralel olaraq Mahmudovların Azərbaycandakı bütün əmlakları və şirkətləri də tam siyahılaşdırılıb. Sabiq nazirin ailəsinə məxsus "Caspian Crystal" holdinqinə daxil olan restoranlara, mağazalara, avtosalonlara, villalara, hətta tikintisi yarımçıq qalmış mülklərə belə "əl qoyulub". "Bu, eynilə sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin həbsindən sonrakı proseslərdir. Eldar Mahmudovdan qazandığı və gizlətdiyi hər şeyi geri istəyirlər" deyə, mənbəmiz bildirib.

**Mahmudovun xəstə olması barədə yayılmış məlumatlara gəlincə, mənbə bunu təsdiqləmir.** "Eldar Mahmudovun səhhətində əvvəllər də problem olmayıb, indi də özünü normal hiss edir" deyə, bildirib.

Beynəlxalq Bankının İdarə Heyətinin sabiq rəhbəri, hazırda Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlanılan C.Hacıyevin də Birləşmiş Ərəb Əmirliklərində inşa edilmiş iki müəssisəsi satışa çıxarılıb. Söhbət "İntertekstil" fabrikindən və "İntersteel" poladtökmə zavodundan gedir. Bu zavodların tikintisinə Beynəlxalq Bankın yüz milyonlarla dollarlıq krediti sərf olunub. Virtualaz.org istintaqa yaxın mənbələrə istinadən yazır ki, Birləşmiş Ərəb Əmirliklərindəki zavodların sahibi kimi "İntermet" offşor şirkəti göstərilir. Həmin şirkətin payçıları isə çeçen əsilli iş adamı, Rusiya vətəndaşı Hüseyn Marayev və adı neçə vaxtdır Beynəlxalq Bankın boşaldılması işində keçən Fransa vətəndaşı Xaqani Bəşirovdur. Belə ki, səhmləri H.Marayevin nəzarətində olan "Golden Bat" şirkəti "İntermet"in səhmlərinin 50 faizinə, Xaqani Bəşirovun Britaniyanın Virgin adalarında qeydiyyatdan keçmiş "Camelot Oil & Gaz" şirkəti isə qalan 50 faizinə nəzarət edir. Başqa sözlə, Beynəlxalq Bankın keçmiş rəhbəri Cahangir Hacıyev yüz milyonlarla manat krediti Marayevlə Bəşirova ayırıb, Adil Hüseynovun rolu isə bankın Dubay nümayəndəliyinin rəhbəri kimi vəsaitlərin xərclənməsinə nəzarəti təmin etməkdən ibarət olub.

Beynəlxalq Bankın girovluğunda olan zavodların satışına dair danışıqları Hüseyn Marayevlə Xaqani Bəşirov aparır. Omandan, Qətərdən bu zavodlarla maraqlanan investorlar var, bəzi məlumatlara görə, artıq ilkin razılaşma əldə edilib. Əgər zavodların satışına dair razılıq əldə edilsə, deməli, Beynəlxalq Bank onları girovluqdan çıxarmalıdır. Ancaq zavodların satışından nə qədər vəsaitin əldə olunacağı, bu vəsaitlə bankın ayırdığı krediti bağlamağın mümkünlüyü hələ məlum deyil.

Maraqlıdır ki, bankın xaricdəki aktivlərinin idarə edilməsi və satışının təşkil edilməsi işini Xəqani Bəşirov aparır.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016

**Bir neçə günlük sükutdan sonra nəhayət, danışmağa razılıq verdi. Etiraf etdi ki, özünə qarşı sosial şəbəkələrdə aparılan kampaniyadan çox əsəbiləşdiyi üçün yazılanlara dərhal reaksiya vermək istəməyib, hirsinin soyumasını gözləyib. Beləcə, son aylarda ikinci dəfə ciddi ictimai qınaqla üzləşmiş - ötən ilin sonlarında "Türkiyə Rusiyadan üzr istəməlidir" dediyinə görə ona qarşı sərt etirazlar olmuşdu - Milli Məclisin deputatı Aqil Abbasla söhbətimizi təqdim edirik:**



# "Kiminsə alqışı ilə yaranmamışam ki, qarğışı ilə də öləm"

## Aqil Abbas: "Özüm kəndçiyəm, bütün nəslim də kənddə yaşayır"

***- Aqil bəy, Ağcabədi səfərinizdən sonra verdiyiniz müsahibədə aksiya keçirən adamlara xitabən "gedin, soğan əkin" deməyiniz xeyli müzakirələrə səbəb oldu, qınandınız, tənqid olundunuz, kollajlarınız hazırlandı. Bu cür ictimai qınaq, reaksiya gözlənilməz olmadı ki?***

- Düzü, gözlənilməz oldu. Özü də bunlar əsasən bir qrup idarə olunan sosial şəbəkə istifadəçiləridir. Onlar müəyyən adamlara belə hücumlar təşkil edirlər. Sözümü kimsə bəyənməyə bilər, mənim dediyim Quran ayəsi deyil. Subyektiv və obyektiv fikirlərim ola bilər, kiminsə də bununla razılaşmaması normaldır. Amma fikrini bildirə bilər. Təhqir elədilər, etsinlər də. Kiminsə alqışı ilə yaranmamışam, qarğışı ilə də öləm.

***- Müsahibənizdə çox məsələlərdən danışmışdınız, amma soğan məsələsi daha çox dartışıldı...***

- Çox məsələlər var idi. Demişdim, bəli, işsizlik var, kimsə bunu inkar edə bilməz. Amma demişəm ki, işsizlik Amerikada da var, təkcə bizim problem deyil. Həmçinin demişəm ki, dövlət adamlara torpaq verib, gedib o torpağı əkib-becərsin, ailəsini saxlasın, bolluq yaratsın. Soğanı misal üçün demişdim, gedib kartof əksin, heyvan saxlasın.

***- Sizin görüşdüyünüz adamlar torpağı əkib-becərməyin, əldə olunan məhsulun bazara çıxarılmasının çətinliklərindən danışdılarmı?***

- Mən özüm də o çətinlikləri bilirəm. Özüm də kəndçiyəm, bütün nəslim də kənddə yaşayır. Mən torpağı əkməyin çətinliklərini bilmirəm? Başqa bir şeyi deyim. Qardaş Türkiyədə hər il seçki vaxtı partiya liderləri deyir mazutun, suyun qiymətini aşağı endirəcəm. Amma bu günəcən bunu edə bilmirlər, hansı ki, Türkiyə qüdrətli dövlətdir. Azərbaycanda suvarma sistemlərinin enerji haqqını dövlət ödəyir, suvarma sistemi pulsuzdur. Bundan əlavə, taxıl əkini ilə bağlı hər hektar üçün 80 manat pul verilir, yaxud gübrə pulsuzdur. Ancaq gəlin açıq danışaq. Dostum, insanlar onlara verilən pay torpaqlarından istifadə etmirlər. Mən kənddən danışmışam, Bakıdan yox.

***- Sizin bölgədə nə qədər əkilməmiş, amma əkinə yararlı sahə var?***

- Əslində əkilməmiş sahə çox azdır. Çünki insanlar özü əkmir, gəlib Bakıda, ya qonşusunda fəhləlik edir, amma torpağı çox ucuz qiymətə əkənə icarəyə verir.

***- Deməli, torpaq əkilir...***

- Bəli, əkilir. Əkilməyən torpaqlar çox az miqdardadır. Elə bizim kənddə də. Ya biri Rusiyaya gedib, qardaşı əkir, ya da kimlərəsə icarəyə verilib, amma əkilir. 70-80-ci illərdə Azərbaycan neftlə dolanmayıb. Hətta 12-13 milyon ton neft istehsal edirdi, özü də planı kəsirlə yerinə yetirirdi. Neftdən gələn gəliri isə SSRİ aparırdı, əvəzində neftçiyə ev tikilirdi, onun sosial problemi həll olunurdu. Yəni Ağcabədidəki adamlara neftin 1 manat xeyri dəymirdi. Onda Azərbaycanın 2 milyarddan bir az artıq büdcəsi var idi, hətta Gürcüstanın büdcəsi

### "Məndən ən çox xahiş edirlər ki, onlara Xaçmaz toxumu tapım"

bizdən çox idi. Heydər Əliyev hakimiyyətə gələndən sonra kənd təsərrüfatını qaldırdı. Mən bu gün də kənd təsərrüfatının inkişaf etdirilməsinin tərəfdarıyam. Kənd Təsərrüfatı Nazirliyi xüsusi planlar hazırlamalı, ölçüb-biçməlidir. Deyək ki, kimsə gedib soğan əkir, sata bilmir. Deməli, ölkədə soğan çox əkilib. Yaxud kütləvi şəkildə qarpız əkilir, qarpız 5 qəpiyə düşür. Yeni Kənd Təsərrüfatı Nazirliyi bunu tənzimləməlidir.

***- Əgər yerli adamlar torpağı özləri əkməyə maraqlı deyilsə, deməli, burada konkret səbəblər var. Bəlkə siz digər istiqamətlərə tənqidi yanaşsaydınız daha doğru olardı. Məsələn, kəndlinin əlini işdən soyudan, onlara manea yaradanlara...***

- Mən o biri tərəfi də tənqid etmişəm. Milli Məclis qanun qəbul edib ki, tədarük məntəqələri açılmalıdır. Təbii ki, bu işlər görülməlidir. İndi başqa bir şeyi deyim. Ağcabədidə gəlib ev-ev düşüb kəndlilərdən südü alıb aparırlar. İki süd kombinatı var, onlar gəlib alırlar. Əhali də razıdır, heyvandarlığı da inkişaf etdirir. O cümlədən tədarük məntəqələri əhalidən pomidoru, badımcanı, kökü də gəlib almalıdır. Söhbət tək soğandan getmir, bu gün hamı soğandan danışır. Məsələn, Bərdə ilə Ağcabədidə bəlkə 1 milyon ton xurma olur, tökülür qalır, yığan da olmur. Niyə bir emal müəssisəsi tikmirlər? Onun cemini hazırlamaq olmazdımı?

***- Bütün bunları incəliyinə qədər bildiyiniz halda niyə hökumət qarşısında məsələ qaldırmırsınız, parlamentdə çıxışınızda demirsiniz?***

- Bu məsələləri qaldıracağam. Daha parlamentin növbədənkənar sessiyası idi, toxuna bilmədik. Amma yaz sessiyasında sözümü deyəcəyəm. Qardaşım, 1 milyon ton xurma yerə tökülüb qalıb, biz niyə cemi xaricdən almalıyıq? Bəzi yerlərdə artıq meyvə şirəsi istehsal edirik, niyə digər istehsal müəssisələri də yaratmayaq? Təbii ki, iş adamları gedib orda bir konserv zavodu tikə bilər. Məsələn, mən Masallıda gördüyüm bir fakta görə çox pis oldum. Orada İsti su tərəflərdə bir konserv zavodu var idi, özüm də orda olmuşdum. Nə günə qoydularsa, o zavod bağlandı. Belə zavodların sayını artırmaq lazımdır. Həm iş yeridir, həm bölgələr daxili məhsulun istehsalı ilə məşğul olur, həm ekoloji təmiz məhsuldur.

***- Bəlkə elə siz o qalmaqallı söhbətə bu yerdən başlasaydınız, bu şəkildə hədəfə çıxmazdınız, razılaşırsınızmı?***

- Mənə verilən sual belə deyildi axı. İndi siz məndən bu barədə soruşursunuz, cavab verirəm. Dedim, əşi, işsizliyin səbəbi budur da. İşsizlik var, bunu danmaq axmaqlıq olar. Amma kiminsə torpağı varsa, niyə əkib-becərmir? Fakt deyim: Ağcabədidə tikintidə işləməyə adam tapılmır. Amma ağcabədili gedib Ağdamdakı, ya Bakıdakı tikintidə işləyir. Ölkədə bir belə tikinti gedir, eləmi?

***- Gedirdi...***

- Yox, gedir. Adamlar özünə ev tikir də. Rayonda ev tikməyə işçi qüvvəsi çatışmır. Amma cavanlar gəlib Bakıda daş daşıyır. Adamlar öz rayonunda işləməyi özünə sığışdırmır. Mən bunları demək istəmişəm, dostum! Başqa məsələlər də var. Ağcabədidə çuğundur əkirlər, "Azərsun" alıb aparır, amma ucuz qiymətə alır. Çuğundurda məhsuldarlıq yüksək olur. O gün televiziyada baxıram ki, İŞİD Suriyada pambıq əkib satır. Deməli, xeyir götürür ki, əkir də. Azərbaycanda isə pambıq kol üstündə qaldı.

***- Bəli, biz də yazdıq. Maraqlandınızmı niyə qaldı?***

- Deyirlər pambığın satış bazarını tapmırıq. Necə olur ki, satış bazarını İŞİD tapa bilir, amma dövlətlər tapa bilmir? Dünyada pambıqdan qiymətli nə var? Bu gün heç bir imkanlı adam sintetika geyinmir.



### "Ağcabədidəki adamlara neftin 1 manat xeyri dəymirdi"

***- Siz bunlardan da danışa bilərdiniz və həmkarınız Zahid Oruc kimi çoxlarının gözünün işığı olardınız. Amma soğandan danışdınız, çoxlarının gözü yaşardı...***

- Sən mənə bu sualı verirsən, mən də bu cavabı verirəm. Sən mənə hədərə söz deyirsən, mən də hüdərə söz deyirəm, bildinmi? Söhbət ondan gedir ki, kənd təsərrüfatını gücləndirmək lazımdır. Dünya bazarında pambıq 1 manat 90 qəpikdir, sən kəndlidən 40 qəpiyə alırsan. Bunu heç olmasa yarı qiymətə al da...

***- (Əlindəki siqaretə işarə edib soruşuram) Aqil müəllim çəkdiyiniz siqaret hansındandır?***

- "Kent"dir.

***- Yəni qiymət artımı sizə də təsir edib.***

- Təbii ki. 2 manata alırdım, indi 3 manat 50 qəpiyə alıram. Elə gələk tütünün üstünə. Dünyada gözəl tütün növləri var. Ən gözəl tütünsə Türkiyə tütünü hesab olunur. Türkiyə ilə Azərbaycan da bir qovşaqda yerləşir. Zaqatala-Balakəndə də tütün əkilir. Sən tütünü normal qiymətə al, əkinçi də onu əksin, sənə versin, sən də siqareti o qiymətə qaldırma da, qardaş. Yerli xammaldan istifadə edin də. Rayonlarda ətin qiyməti olduğu kimi qalıb, qoyun əti 6, mal

***- Qarşıdakı aylarda vəziyyətin daha da ağırlaşmaması üçün hansı addımları atmağı planlaşdırırsınız?***

- Təbii ki, mən kənd təsərrüfatı naziri ilə görüşüb öz təkliflərimi deyəcəyəm. Yaxud Şahin müəllim - iqtisadi inkişaf naziri - ən açıq adamlardan biridir, götürün zəng edin, telefonu özü qaldıracaq. Təkliflərimizi deyəcəyəm. Mən demirəm ki, kənd təsərrüfatını Heydər Əsədovdan yaxşı bilirəm. Yaxşı bilmirəm, sadəcə olaraq, camaatın təkliflərini - sosial sifarişi onlara çatdırmaq da mənim borcumdur. Ağcabədi, Ağdam, ya Füzulidə adamlar mənə sözünü dedi, mən də gəldim, bəziləri ilə telefonla danışdım. Növbəti iclasda da bəzi məsələləri qoyacağıq.

***- Bölgədəki gərginlik səngiyibmi?***

- Əvvəla, orada elə bir ajiotaj olmamışdı. Mən oradaydım. 200-300 adam yığıldı, hamı da sözünü dedi. Elə şeylər var ki, onun həlli imkan daxilindədir, elə şeylər də var ki, həlli imkan daxilində deyil. Məsələn, hamı sosial müavinət istəyir. Mənim fikrimcə, sosial müavinət, ümumiyyətlə, ləğv olunmalıdır. Uşaqpulu verilməlidir, özü də normal məbləğ. 20 manat uşaqpulu olmaz ki. Heç olmasa uşağın bir aylıq ye-

### "Sosial müavinət ləğv olunmalıdır"

əti 5 manatdır. Deyəsən, burda da 1 manat artıqdır. Səbəbi sadədir: çünki heyvandarlıq çox yaxşı inkişaf eləd. Qoy tədarük məntəqələri açılsın və dövlət ehtiyacı açıqlansın. Deyilsin ki, qardaş, sən bu il mənə 10 ton kələm verəcəksən, mən də pulunu verəcəyəm. Kəndli bilmir ki, nə əksə ondan fayda götürəcək. Görür ki, keçən il qarpız baha oldu, qarpız əkir, qalır sahədə. Ya kartof-soğan əkir, tökülüb qalır. Yeni bu məsələləri tənzimləmək lazımdır. Kənd Təsərrüfatı Nazirliyi nə üçündür? Mən kənddə yaşayıram, nə bilirəm ki, gələn il bazar nə tələb edəcək.

mək pulunu verməlisən. Dediyim kimi, hamı müavinət istəyir. Qanun da elə qəbul olunub ki, birinin həyətində bir inək varsa, ailə müavinət ala bilməz. Niyə? Deyək ki, ailədə 10 nəfərik, bir inəyimiz var, bu inəyi 10 uşaq birdən əmə bilməz axı. Səlim müəllim bu quruma rəhbər gələndən sonra tam şəffaflıq yaradılıb. Qabaq illik müavinəti bölürdülər ki, 6 ayı sənindir, 6 ayı da mənim. Hətta yardım düşməyənlər də alırdı. İndi elektron qaydada həll olunur. Sosial Müdafiə Nazirliyində çox böyük islahat gedib. Səlim müəllim də bu işi çox gözəl bilən adamdır, çox istərdim ki, ünvanlı sosial yardımı ləğv etsinlər. Ya da müavinət kəsirlərsə...Tutaq ki, bir ailədə 70-ci illərin "Moskviç"i var, onu kənarda saxlamasınlar, minimum yaşayış həddi hesablansın və həmin ailələrə yardım verilsin. Ya bu qayda ilə versinlər, ya da bunu ümumiyyətlə ləğv etsinlər. Etiraz aksiyalarında da ən çox bundan söhbət gedirdi ki, "mən müavinət ala bilmirəm".

***- Bank krediti olanlar da çoxdur?***

- Təbii ki, krediti olanlar da var. Düzdür, kənddə dollarla krediti olanlar çox deyil. Amma əgər dollarla götürübsə, təbii ki, 1.05 manatla qaytarmalıdır. Sabah 1 dollar 100 manat olacaqsa, mənə nə aidiyyəti, mən 1.05-dən almışdım axı. Yəqin ki, bu məsələlər işlənib hazırlanacaq və prezidentimizin müvafiq qərarları olacaq.

***- Aqil bəy, sizin başqa bir fikriniz də mübahisə doğurdu və etiraza səbəb oldu. "Gürcüstanda pul yoxdur deyə, rüşvət vermirlər..."***

- İndi mən deyim? Söhbət ondan gedir ki, xüsusən Amerikaya işləyən radiolar, saytlar Gürcüstanı həmişə bizə örnək göstərirlər. Mən də tez-tez Gürcüstanda oluram. Gürcüstanın həyat səviyyəsi Azərbaycandan iki dəfə aşağıdır, sən onu niyə mənə örnək göstərirsən? Dedim, yaxşı, bir ölkənin ki, prezidenti, baş naziri ABŞ Dövlət Departamentindən maaş alır, orada hansı müstəqillikdən və hansı inkişafdan danışmaq olar?

***- Azərbaycanda prezident səviyyəsində korrupsiya və rüşvətin mövcudluğu etiraf olunur, bunu niyə danaq ki?***

- Mən demirəm ki, Azərbaycanda rüşvət yoxdur. Əslində mən də xalq deyəni demişəm, sadəcə düzgün anlaşılmayıb. Cəlilabad yolu ilə gəlirsən, insanlar balaca sahələrdə çiyələk əkiblər, adamın gözünü oxşayır. Bakı kəndlərində vaxtilə gül əkirdilər, ildə bir maşın alırdılar. Sonra qaz olmadı, gülçülük də dayandı. Məsələ budur, insana şərait yarat və ondan da tələb elə. Ağcabədi, Bərdə, Beyləqan, Füzulidə vaxtilə hektardan 50 sentner taxıl götürülürdü. Toxumu da Amerika, ya Kanadadan gətirmirdilər, yerli alimlərimizin yaratdığı toxumlar idi, İmam Mustafayevdən tutmuş, Cəlal Əliyevə qədər bu sahədə işləyən adamların toxumları idi. Məsələn, Ağcabədidə ən çox xahiş edirlər ki, onlara Xaçmaz toxumu tapım. Çünki 50 sentner məhsul verir. Amma indi məhsuldarlıq 20 sentneri aşmır. Mən bunlardan danışıram. Mənim fikrimi başqa yerə yozdular ki, deyir "soğan ək". Soğan əkmirsən, get kartof, çiyələk ək...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016

# "Əli Kərimli mənəvi terrorun xaç atasıdır"

## "Yeni Müsavat" qəzetindən AXCP sədrinə sərt cavab: "Onun haqqında kim yazsa, dərhal söyüş fabrikini işə salır"

**Əli Kərimli AXCP-sinin zombi qrupunun "Yeni Müsavat"a təhqir və hədyan dolu hücumu davam edir. Ötən gün musavat.com saytında yayımlanan və Milli Şuranın Şəhidlər Xiyabanına ziyarətinin fotolarını əks etdirən "Əli Kərimli hərbiçiləri də "axe-ce-pe"-çi etdi" adlı yazıdan sonra bir qrup AXCP üzvü sosial şəbəkələrdə "Yeni Müsavat"ı, onun baş redaktorunu təhqir etməyə başlayıb.**

Özünü demokrat adlandıran bir siyasi təşkilatın rəhbərinin çevrəsinin mətbuata qarşı bu cür qeyri-etik davranışı ictimaiyyətdə də birmənalı qarşılanmayıb.

**"Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan** açıqlama verərək, mətbuata bu cür hücumu arzuolunmaz tendensiya kimi qiymətləndirib: "Milli Şuranın 20 yanvar günü Şəhidlər Xiyabanında ziyarəti ilə bağlı musavat.com-da çıxan məlum yazıya Əli Kərimlinin çevrəsi çox kəskin və tərbiyəsiz reaksiya verdi. Facebook sosial şəbəkəsində açıq şəkildə "Yeni Müsavat" qəzetinin, o cümlədən qəzet rəhbərinin ünvanına küçə uşaqları tərzində söyüşlər yazıldı. Şəhidlər Xiyabanında olan əməkdaşımız foto göndərərək, MŞ-nin ziyarət səhnəsinin fotoşop olması ilə bağlı iddia irəli sürüb və o şəkil kiçik bir yazının müşayiət ilə yayımlanıb. Bundan sonra Əli Kərimlinin söyüş fabriki işə düşüb. Mətbuatla, jurnalistlərlə bu cür davranış mənəvi terrorizmdir. Bunun başqa adı yoxdur. Əli Kərimli Azərbaycanda mənəvi terrorizmin xaç atasıdır. Bu terrorbaşı xoşu gəlmədiyi adamları öz zombilərinə söydürür. Özü zamanında o qədər söyülüb, o qədər təhqir olunub, bu cür mənəvi terroru artıqlaması ilə dadıb deyə, görünür, içində bir kompleks yaranıb - özünü insanları söyməklə, söydürməklə sakitləşdirir. Bu adam görün nə qədər xəstə təfəkkürə sahibdir ki, tənqidə, təftişə söyüşlə, təhqirlə qarşılıq verir. Elə bir mühit yaradıb ki, kimsə bunun haqqında nəsə yazsa, desə, dərhal həmin adamı zombilərinin dili ilə söydürür".

**"AXCP bizi söydüyünə, redaksiyaya bir təkzib məktubu yollayaydı, bununla da mübahisə həllini tapardı. Demək, bunlara normal polemika sərf etmir"**

**A.Ayxan bildirib ki, mətbuat doğrusu ilə, yanlışı ilə cəmiyyətə lazımdı. O deyib ki, azad mətbuatın mövqeyinin zəiflədilməsi, müstəqil qəzetlərin sayının kəskin şəkildə azaldılması özünü siyasi müxalifət kimi təqdim edən qüvvələrin də fəaliyyətinə problem yaradır:** "Bir yandan da özünü demokrat sayanlar - müxalifət partiyalarının rəhbərliyinə daxil olan şəxslər bizi vurur, söyür, hər addımda mətbuatın işinə çomaq soxur. Fikirləşmirlər ki, hökumətdən qalan canımızı da bunlar alsalar, sabah fəaliyyətləri mümkün olmayacaq. Biz jurnalistlər olmasaq, cəmiyyət müxalifətin nə ölüsündən xəbər tutacaq, nə dirisindən. Bu elementar həqiqəti bunlara illərdir ki, izah edə bilmirik".

**Baş redaktor müavini bildirib ki, "Yeni Müsavat" Əli Kərimlinin ən ağır günlərində ona dəstək olub:** "TV-lərdən onun ailəsini söyənlərə biz cavab vermişik. Cinsi azlığın nümayəndələri ilə şantaj olunanda, parlamentdə barəsində olmazın söyüşlər səsləndiriləndə bunun siyasi mübarizədə yolverilməz olduğu haqda ilk yazıları biz yazmışıq, onu açıq və israrlı formada müdafiə etmişik. Əli Kərimli 2005-ci ildə Qələbə meydanında döyüləndə, bu səhnənin foto-faktını ölkə və dünya ictimaiyyətinə ilk çatdıran KİV-lərdən biri də "Yeni Müsavat" idi. İndi bu adam bizim valideynlərimizi söydürür. Nə var ki, yazmışıq filan şəkil fotoşopdu. Milli Şura və ya AXCP bizi söydüyünə, redaksiyaya bir təkzib məktubu yollayaydı, çap edəydik, bununla da mübahisə öz həllini tapardı. Demək, bunlara normal polemika sərf etmir. Belə çıxır ki, özlərini yalnız söyüşlə, təhqirlə ifadə edə bilirlər".



**"Bu adam görün nə qədər xəstə təfəkkürə sahibdir ki, tənqidə, təftişə söyüşlə, təhqirlə qarşılıq verir"**

**Azər Ayxan qeyd edib ki, bu davranış Azərbaycanı ciddi şəkildə izləyən beynəlxalq qüvvələrin də diqqətini çəkir:** "Həm də Azərbaycan cəmiyyətinin ağıllı, normal düşünən kəsimi bu prosesə baxıb çox ciddi nəticələr çıxarırlar ki, Əli Kərimli və onun dəstəsi iqtidara gəlsə, onların əleyhinə yazan jurnalistlərin və qəzetlərin başına hansı oyunlar açarlar. O hirs, o qəzəb, o nifrət, o söyüşlər - hamısı onun əlamətləridir. Sadəcə olaraq, bu gün əllərində bir qəzet və facebook var, onun vasitəsilə bizi mənəvi terrora məruz qoyurlar. Ünvanımıza çox ağır söyüşlər deyirlər, yazırlar. Əllərində iqtidar olsa, inzibati resurslara sahiblənsələr, heç şübhəsiz ki, jurnalistləri küçədə döyərlər, öldürərlər, redaksiyalara basqın təşkil edərlər. Əmisi oğlu İnqilab Kərimov bunun anonsunu bir neçə dəfə verib zatən. Adlarını demokrat qoyan bu adamların demokratiyaya, söz azadlığına, fikir müxtəlifliyinə nə qədər təhlükə yaratdığı istər-istəməz nəzərə çarpır".

**A.Ayxanın sözlərinə görə, Azərbaycanda mətbuatın yazdıqlarına söyüşlə cavab vermək ənənəsinin əsasını Əli Kərimli qoyub:** "Müxalifətdə satqınlıq, separatçılıq, liderinə xəyanət ənənəsini bu adam yaratdığı kimi, mətbuatın yazdıqlarına söyüşlə cavab vermək ənənəsinin də fundamentini AXCP sədri qoyub. Atalar gözəl deyib, özgəsinə qazdığın quyuya özün düşərsən. Əli Kərimli ən pis ənənələr üçün qazdığı quyuya, fundamentə çoxdan düşüb zatən. Adamın böyür-başında bir adekvat adam yoxdu, varsa da o adamlara irəli çıxmağa imkan vermir. İnanıram ki, zaman bu əxlaq və mənəviyyat yoxsulunun düşdüyü quyunun üstünü örtəcək. Bununla da Əli Kərimlinin ictimai-siyasi mühitə yaydığı üfunətin qoxusu kəsiləcək".

❑ **Nərgiz LİFTİYEVA**

# MTN polkovnikinin ölüm işində yeni gəlişmə

## İlqar Əliyevin ölüm işi Bakı Prokurorluğundan alındı

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin ölüm işi ilə bağlı yeni xəbər almışıq. Məlumata görə, İ.Əliyevin ölüm işi Bakı Şəhər Prokurorluğundan alınıb. İlqar Əliyevin Bakı İstintaq Təcridxanasından meyiti çıxdığı gün belə xəbər vardı ki, işi ərazi aidiyyəti üzrə Sabunçu Rayon Prokurorluğunda araşdıracaqlar. Amma sonradan bu xəbər təsdiqlənmədi. İşin araşdırılması Bakı Şəhər Prokurorluğuna həvalə olundu. 2015-ci il dekabrın 20-də BİT-də İlqar Əliyev dünyasını dəydi. Onun ölümündən 2 gün sonra dekabrın 22-də isə digər məhbus - Manaf Paşayev də orada öldü.**

Hər iki iş üzrə Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlandı.

Manaf Paşayevin ölümünü bu gün də ərazi aidiyyəti üzrə Sabunçu Rayon Prokurorluğunda araşdırırlar. İlqar Əliyevin işi üzrə cinayət işinin materialları isə Bakı Şəhər Prokurorluğundan alınaraq Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə verilib.

Bəs belə bir addımın atılması hansı zərurətdən doğub? Bakı Şəhər Prokurorluğu iş üzrə araşdırmaları niyə davam etdirə bilməyib?

Yaranmış suallar və İlqar Əliyevin ölümündən sonra doğan suallarla "Xural" qəzetinin baş redaktoru, vaxtilə İlqar Əliyevin saxlanıldığı BİT-də 1 il 6 ay istintaq altında olmuş Əvəz Zeynallıya müraciət etdik.

Ə.Zeynallı deyir ki, İlqar Əliyevin ölümündən sonra baş verənlər sanki onun ölümü ilə bağlı qaranlıq məqamlara aydınlıq gətirməyə deyil, əksinə, ölümün ört-basdır olunmasına, "MTN işi"nin ümumilikdə dar çərçivəyə salınmasına xidmət edir: "İlqar Əliyev haqda əvvəllər dediyimiz versiyalar təsdiqlənməkdədir. Qəzetinizə əvvəlki açıqlamamda demişdim ki, İlqar Əliyevin kamerada özünü asması mümkün deyil. Bugünlərdə qəzetinizdə yazılanlardan öyrəndim ki, onun yaxınları da onun özünü öldürməsinə inanmırlar. Onun ailəsi də ölümünün təbii ölüm olmasına inanmadığı deyir. İlk gündən çox ciddi-cəhdlə İlqar Əliyevin ölümü ilə bağlı məlumatlan ictimaiyyətdən, media nümayəndələrindən gizlətməyə başladılar. Fikir verdinizsə, İlqar Əliyevin ölümündən sonra dünyasını dəyişən məhbusun onun kamera yoldaşı olması haqda mətbuatda bizim versiyalarımızın dərcindən sonra Penitensiar Xidmətdən açıqlama verildi. O açıqlama da natamam idi. Ümumi söz yığnağı idi.



Yəni o adamın İlqar Əliyevin kamera yoldaşı olmadığını demək çox asandır. Digər tərəfdən də Bakı İstintaq Təcridxanasında kiminsə kamerasını dəyişmək çox asandır. Hər halda, son gəlişmə onu deməyə əsas verir ki, İlqar Əliyevin ölümü ilə bağlı məlumatların üzərindəki sirr pərdəsini götürməyəcəklər. Əksinə, getdikcə bu pərdənin qatlarını artırmaq istiqamətində iş gedir. Belə görünür ki, istintaq orqanı olayın təfərrüatlarını üzə çıxarmaq əvəzinə, daha çox ört-basdır olunmasına nail olmağa çalışır".

**Ə.Zeynallı deyir ki, İlqar Əliyevin ölüm işinin onun işi üzrə istintaq aparmış müstəntiqlərin özünə verilməsi də bu məqsədə xidmət edir:** "Cinayət işlərində adətən işi aparan, cinayətin araşdırılmasında iştirak edən müstəntiq, təhqiqatçı, prokuror heç bir zaman təkrarən eyni şəxsin işində iştirak etmirlər. İlqar Əliyevin işində bu halın istisna təşkil etməsi dediyimiz məqsədlərə xidmət etmir ki? Bu işi həmin adamlara tapşırmaqda məqsəd nədir? Məgər Sabunçu Rayon Prokurorluğunda İlqar Əliyevin ölüm işini araşdırmaq qabiliyyətində olan bir müstəntiq yox idi? Əslində iş əvvəldən Bakı Şəhər Prokurorluğuna tapşırılandan məsələ aydın idi. Görünür, İlqar Əliyevin ölüm işində o qədər açıq ipucları olub ki, Bakı Şəhər Prokurorluğunda araşdırılmasını mümkünsüz edib və işi alıb Ağır Cinayətlərə Dair İstintaq İdarəsinə veriblər. Amma üstünü açmaq üçün yox..."

**Baş redaktor deyir ki, hətta hakimlər belə vaxtilə hər hansı bir şəkildə çıxdıqları işlər yenidən özlərinə qayıdanda özləri-özlərinə etiraz verirlər:** "İlqar Əliyevin həbsindən sonra digər MTN-çilər kimi onun da işini Ağır Cinayətlərə Dair İstintaq İdarəsi araşdırırdı. Onu dindirən müstəntiqlər, bu müstəntiqlərə rəhbərlik edənlər indi İlqar Əliyevin ölümünü araşdırırlar. Niyə? Məgər onların başqa işləri yoxdur ki, qanunla rayon prokurorluğunda araşdırılması nəzərdə tutulan bir işi alıb özləri araşdırırlar? Bu işi araşdırmaq üçün alıblarmı? Sual budur".

**Ə.Zeynallı düşünür ki, İlqar Əliyevin kompromatları gec-tez "danışacaq":** "Ölümündən əvvəl onun bildiklərini söyləmək istəməsi haqda fikirlər var. Amma mən inanmıram. Çünki İlqar Əliyevin əlində olan materiallar güman ki, bu gün haradasa qalır. Yəni bu tip adamlar danışmaq istəyirlərsə, onlar ölümlərindən sonra da əllərindəki materialların, kompromatların vasitəsilə "danışa" bilirlər. İlqar Əliyev iri çapda adamdır, çıxdığı sistemlə hədə dili ilə danışmazdı. Bu inandırıcı görünmür. Bu tip adamlar gözəl bilirlər ki, danışmaları onlara çox baha başa gələ bilər. Görürsünüz, o biriləri necə quzu kimi oturublar?! Bilirlər ki, özlərinin yaratdıqları sistemlə hədə-qorxu dili ilə danışmaq olmaz. Bu işin içində başqa bir iş var. Əgər belə demək mümkündürsə, onu belə bir şəkildə qətlə yetirib və o birilərinə də bu ölüm üzərində mesaj ötürülüb.

Digər tərəfdən, onun ölümündən sonra məlum oldu ki, İlqar Əliyev əllərini yanına salıb məhkəmə qarşısına çıxarılıb iş alacağı günü gözləməyib. O, müdafiə olunmaq üçün çox ciddi şəkildə vəkili ilə hazırlıqlar görüb. İlqar Əliyevin özünü müdafiə etmək üçün çalışdığı bir vaxtda özünü asması ağlabatan, inandırıcı deyil. İlqar Əliyev ümumən "MTN işi"ni ört-basdır etmək üçün aradan götürülüb. Bu iş çox böyük işdir və araşdırdıqca çox mübhəm ünvanlara gedib çıxır. İlqar Əliyevin ölümü ilə işi məhdud çərçivəyə salıb yekunlaşdırmaq istəyirlər".

**Ə.Zeynallı deyir ki, İlqar Əliyevin ölümündən sonra "MTN işi" səngiyib:** "İlqar Əliyevin ölümündən sonra bu məsələ sanki arxa plana keçdi. Bu gün Bakı İstintaq Təcridxanasında 10-a yaxın MTN generalı, üst-üstə 100-ə yaxın MTN əməkdaşı var. Bu adamlar Azərbaycanın şah damarını təşkil edən qurumun əməkdaşlarıdır. Amma mətbuatda onlarla bağlı məlumatlar demək olar ki, yoxdur. İlqar Əliyevin ölümü də məsələnin üzərinə sanki su səpdi".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Ruslar Elman Rüstəmovu təkzib edir: dollar 2 manat olacaq

## Mərkəzi Bank rəhbərinin manat açıqlaması narazılıq yaratdı, "Elman Rüstəmovun açıqlamaları cəmiyyət tərəfindən real qəbul olunmur və ciddiyə alınmır..."

**Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovun dolların 2 manat olmayacağı barədə söylədikbəri yenidən manatın məzənnəsinə diqqət çəkib. Əksər ekspertlər bildirirlər ki, iki devalvasiyada olduğu kimi, bu dəfə də E.Rüstəmov xalqa yalan informasiya verir. Ekspertlər manatın məzənnəsinin E.Rüstəmovun açıqlamasından asılı olmadığını vurğulayırlar.**

**Qeyd edək ki, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov** Milli Məclisin iclasında bildirib ki, dolların məzənnəsinin 2 manata qədər yüksələcəyi barədə xəbərlər əsassızdır: "Azərbaycanda dolların rəsmi məzənnəsinin 2 manat səviyyəsinə kimi kəskin artması ilə bağlı yayılan xəbərlər əsassızdır". O qeyd edib ki, bəzi möhtəkirlərin vəziyyətdən sui-istifadə etməməsi üçün ölkədə 200-dək valyutadəyişmə məntəqəsi ləğv edilib: "Bazara kifayət qədər valyuta veririk. Dünən hərracda təklif etdiyimiz valyutanın bir hissəsi hətta satılmayıb. Elektron hərrac vasitəsilə proses şəffaf həyata keçirilir. Vətəndaşları sakitliyə çağırıram. Bu gün ciddi təlaş yoxdur. Əsas məsələ iqtisadiyyatın 25-30 dollar/barel ətrafında stabilləşdirilməsi məsələsidir". Baş bankir deyib ki, son hərracda təklif edilən valyutanın hamısı alınmadı. Dəvət edilən 35 bankdan cəmi 28-i hərracda iştirak edib. Bu da onu göstərir ki, bazarda artıq stabil vəziyyət yaranıb. Lakin məzənnə yenə də üzür. Proses davam edir. Çünki burada müəyyən təsir var. O deyib ki, iqtisadiyyatımız neftin qiymətlərinə uyğunlaşmalıdır. Neftin qiymətləri düşür, stabilləşməni bunun əsasında aparmalıdır. "Bizə Dövlət Neft Fondunun vəsaitlərindən çevik istifadə etməklə manatı idarə olunan səviyyədə saxlamaq tapşırılıb. Manatın məzənnəsi əhəmiyyətli dərəcədə xarici amillərdən asılıdır, dəyişən neft, ticarət tərəfdaşlarında devalvasiya məcbur edir ki, bunu nəzərə alaq. Bunu edirik və məsuliyyətini də dərk edirik. Buna reaksiya verməmək mümkün deyil".

**Ekspertlər isə bildirirlər ki, baş bankir xalqa yanlış informasiya verməklə təlaşı azaltmaq istəyir. Əslində isə dolların 2 manata qədər bahalaşması üçün ciddi əsaslar var. Ekspert Rəşad Həsənovun sözlərinə görə, E.Rüstəmovun açıqlamaları cəmiyyət tərəfindən real qəbul olunmur və ciddiyə alınmır:** "O, manata olan təzyiqləri, psixoloji təsirləri minimuma endirmək üçün faktiki olaraq cəmiyyətə doğru olmayan informasiya çatdırır. Hazırda Mərkəzi Bankın elan etdiyi rəsmi məzənnə faktiki olaraq real bazarda özünü göstərmir. Vətəndaşlar 1,75, yaxud 1,80 olmaq şərti ilə real, qara bazardan dollar əldə etmək məcburiyyətində qalıblar. Bankların əksəriyyətinin demək olar ki, xarici valyuta satmaması, onların qeyri-leqal bazarda sürətlə dəyər itirməsinə səbəb olur. Manatın məzənnəsi birbaşa olaraq neftin qiymətlərindən asılıdır. Neftin pessimist ssenarisində qiymət 40 dollar nəzərdə tutulmuşdu. Ancaq ən yaxşı halda, 2016-cı ildə neftin qiyməti 30-40 dollar olacaq. Bu da o deməkdir ki, manat dəyərini zaman-zaman itirəcək. Dolların 2 manat olması heç də uzun müddət tələb etmir. Bir neçə gün ərzində mümkündür ki, Azərbaycan manatı öz dəyərini itirsin və qeyri-leqal bazarda 2 manata satılsın. Bu, artıq müşahidə olunan hal olub. Proses bu istiqamətdə davam etdiriləcəksə, uzun müddət çəkməyəcək ki, Azərbaycan vətəndaşları 2 manat məzənnəsini görəcəklər. Zamanla yumşaq məzənnə siyasətinə keçiriləcək, Mərkəzi Bank buna məcburdur".


Elman Rüstəmov

**Ekspert Qadir İbrahimli isə vurğulayıb ki, manatın məzənnəsi Elman Rüstəmovun açıqlamasından asılı deyil:** "Manatın taleyi dünya bazarında neftin qiymətindən asılı olan bir məsələdir. Əgər neft enməsi davam edəcəksə, ölkəyə valyuta axını azalacaqsa, təbii ki, devalvasiya baş verəcək. Nəinki dollar 2 manat, hətta 3-5 manat da ola bilər. Yəni artıq bu vəziyyətdə Elman Rüstəmovun proqnozları əhəmiyyət kəsb etmir, aktuallığını itirib. Təxmini hesablamalara görə, dollar may ayına qədər 2 manat 20 qəpik səviyyəsinə qədər bahalaşacaq. O tendensiya artıq dünya neft bazarından asılıdır. Azərbaycana valyuta gətirən neftdən kənar ikinci bir sektor yoxdur. Ölkə ixracatının 93 faizi neft sektorunun payına düşür. Manatın məzənnəsi Elman Rüstəmovun iradəsindən kənardır, xarici amillərlə hesablanır".

Rusiyanın "Sberbank" bankının korporativ-investisiya biznesi sayılan Sberbank CIB "MDB: Borc bazarları" adlı sərmayə hesabatı dərc edib.

Hesabatda deyildiyinə görə, manatın enişinin hansı səviyyədə dayanacağı ilə bağlı sual açıqdır və bu, ancaq manata deyil, Rusiya rubluna, Qazaxıstan təngəsinə və Körfəz ölkələri əməkdaşlıq şurasına daxil olan, valyutaları sabit məzənnə ilə müəyyən edilən bütün ölkələrə aiddir.

**Virtualaz.org xəbər verir ki, hesabatda daha sonra deyilir:** "Vəziyyətin belə olmasının səbəbi odur ki, bazar neftin qiymətinin nə qədər enəcəyini proqnozlaşdırmaqda acizdir. Dünən *(yanvarın 19-u)* elan edilmiş tədbirlərə baxmayaraq, Brent markalı neftin qiyməti 1 barelə görə 25 dollara düşərsə, USD/AZN məzənnəsi indiki 1,60 səviyyəsindən daha yüksək səviyyəyə qədər yüksələ bilər və ola bilsin ki, 2 manata yaxınlaşsın".

Hesabatda vurğulanır ki, Azərbaycan hakimiyyəti kapitalın ölkə xaricinə çıxarılmasını məhdudlaşdıran tədbirlərin tətbiqinə başlayıb.

Qeyd edək ki, "Sberbank"ın hesabatı Mərkəzi Bankın başçısı Elman Rüstəmovun dolların məzənnəsinin 2 manata qədər qalxması barədə yayılan şayiələri əsassız adlandırdığı bəyanatı ilə ziddiyyət təşkil edir.

❑ **Röya RƏFİYEVA**

# Sabiq deputatlar hazırda nə edir?

## Kimi siyasi fəaliyyətini davam etdirir, kimi də bizneslə məşğul olur...

**3 ay öncə Azərbaycanın 5-ci çağırış Milli Məclisi formalaşdı. Ötən çağırış parlamentdə təmsil olunan bəzi deputatlar bu dəfə seçilmədilər. Deputat mandatından məhrum olanlardan bir neçəsi universitet rektorudur və onlar rəhbərlik etdikləri təhsil müəssisələrində fəaliyyətlərini davam etdirirlər. Sabiq deputatlardan bəziləri siyasi fəaliyyətini davam etdirir, bəziləri isə ümumiyyətlə, ictimai sektordan kənarlaşdı. Vaxtaşırı mətbuata açıqlamalar verən sabit millət vəkilləri mediaya görünməz oldu.**


Ceyhun Osmanlı


Aydın Abbasov


İqbal Ağazadə

"Yeni Müsavat" bəzi sabiq millət vəkilləri ilə əlaqə saxlayaraq onların hazırkı məşğuliyyətləri ilə maraqlanıb.

**Sabiq deputat Ceyhun Osmanlı** hazırda biznes sektoruna yönəldiyini və artıq sahibkarlıqla məşğul olduğunu bildirdi: "Hazırda iki istiqamətdə fəaliyyətimi davam etdirirəm. Azərbaycan dilində "Qarabağ 99" adlı kitab dərc etmişdik, hazırda kitabın ingilis və fransız dillərinə tərcümələrini hazırlayırıq. Bu birinci fəaliyyət istiqamətimdir. İkinci istiqamətə gəlincə, sahibkarlıq fəaliyyəti ilə bağlı müəyyən planlar var. Hazırda da onları həyata keçirməyə çalışıram. Bir sözlə, gələcəkdə biznes sahəsinə üstünlük verəcəyik. Eyni zamanda daha çox səfərlər edirəm. Bundan əlavə, xarici strukturlarda iri layihələrdə konsultant kimi də çıxış edirəm. İrimiqyaslı beynəlxalq işlər hazırda məni daha çox cəlb edir".

**Növbəti parlament seçkilərində namizədliyini verib-verməyəcəyinə gəlincə, Ceyhun Osmanlı bu haqda bir fikrinin olmadığını dedi:** "Növbəti parlament seçkilərinə 5 il var. O vaxta kimi çox şey dəyişə bilər. Hələlik elə bir fikrim yoxdur. Hazırda məni düşündürən sahibkarlıq fəaliyyətimi inkişaf etdirməkdir".

**Sabiq deputat Aydın Abbasov isə kənd təsərrüfatı sahəsində işlər apardığını dedi:** "Müxtəlif yollarla dövlətimizə xeyir gətirməyə çalışırıq. Kənd təsərrüfatı, yeni texnologiyalar sahəsində müxtəlif işlərimiz davam edir".

**"Növbəti parlament seçkilərinə qatılacaqsınızmı" sualını cavablandıran Aydın Abbasov bunun seçicilərinin rəyindən asılı olduğunu dedi:** "İki çağırışda parlamentin deputatı olmuşam və seçicilər tərəfindən seçilmişəm. Millət vəkili olmaq üçün xalqın iradəsi əsasdır. Hər şey onların istəyi ilə həyata keçir. Hesab edirəm ki, seçicilərimiz bu məsələdə ən düzgün fikir formalaşdıran və fikir bildirən sosiumdur. Gələcək göstərəcək..."

**Millət vəkili İqbal Ağazadə isə siyasi fəaliyyətini davam etdirdiyini dedi:** "Ümid Partiyasının sədri olaraq partiya fəaliyyətimizi davam edirirk. Partiyadaxili işlərlə məşğuluq".

❑ **Məğrur MƏRD**

## Fəzail Ağamalı yeni deputatların passivliyindən danışdı

**V çağırış Milli Məclisə seçkilərdə 27 deputat ilk dəfə mandat qazandı. Milli Məclis yeni tərkibdə fəaliyyətə başlayandan sonra istər komitə, istər plenar iclaslarda jurnalistlərin diqqəti həm də ilk dəfə mandat qazanmış deputatlara yönəlir. Amma onlar çoxlarının gözlədiyinin əksinə olaraq, passivlik nümayiş etdirirlər.**


Fəzail Ağamalı

Milli Məclisin dekabrdan bu günə kimi keçirilən iclaslarında yalnız köhnə deputatlar danışıb, bu və ya digər məsələlərə münasibət bildiriblər. Yeni deputatlar isə susmağa üstünlük verirlər.

Məsələyə münasibət bildirən parlamentin stajlı deputatı Fəzail Ağamalı modern.az-a açıqlamasında ilk dəfə mandat qazanmış həmkarlarının susqunluğuna belə reaksiya verib.

"Yəqin onlar adaptasiya mərhələsini keçirlər. Darıxmayaq, şübhəsiz danışacaqlar. Bir neçə iclas geridə qalıb. Yeni seçilənlərdən bir nəfər, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Vüsal Hüseynov hətta yaxşı çıxış elədi, İnzibati Xətalar Məcəlləsi haqqında təqdimat etdi, həm də özünü yaxşı göstərdi. Düşünürəm ki, ilk dəfə seçilən deputatlar prosesləri izləyir, müəyyən kompleksləri özlərindən uzaqlaşdırırlar. İnanıram ki, növbəti sessiyalarda özlərini göstərəcəklər".



# Sıravi Cəfərzadəyə necə ehsan verməli

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən musavat.com saytında oxuduğum bir yazı gerçəkdən ürəyimi ağrıtdı. Belə kədərli mövzularda yazmağı sevməsəm də məcbur oldum bəzi fikirlərimi çatdırım.**

Yazı keçən il dekabrın 16-da Tərtərdə cəbhə xəttində həlak olan əsgərimiz Rəşad Cəfərzadə haqda idi. Sən demə, bu əsgər atasız-anasız, necə deyərlər, ikiqat yetim imiş, valideynləri 90-cı illərdə öləndən sonra onu və bacısını qohumları saxlayıb böyüdüblər. İndi ona himayədarlıq eləmiş dayısı şikayətlənirdi, deyirdi, qəhrəman əsgərin qəbrini düzəltməyə, ehsanını verməyə, yas mərasimini keçirməyə imkan tapmır, dövlət orqanları biganədir və sairə.

Doğrudan da dəhşətli taledir. Faktiki olaraq Rəşad bəyin ölümündən sonra nəsli davam etdirməyə yalnız bacısı qalıb. Bu faciə mənə məşhur Amerika filmini, 5 "Oskar" ödüllü "Sıravi Rayanı xilas etməli" filmini xatırlatdı. Rejissoru Stiven Spilberq, baş rollarda Tom Henks və Mett Deymonun oynadığı film savaş dramı janrında yəqin ki, ən yaxşı filmlərdən biridir.

Filmin qısa süjeti belədir ki, Amerika ordusu alman faşistləri ilə savaşda Avropaya desant çıxarıblar, ağır döyüşlər gedir. Bu zaman Vaşinqtondakı hərbi komandanlıq Rayan ailəsinin 3 oğlunun eyni vaxtda cəbhədə həlak olması faktı ilə üzləşir. Ailədən yalnız dördüncü oğul sağdır və o da parşütçü-desant dəstəsinin tərkibində Avropaya, almanların arxasına atılıb. Komandanlıq qərara alır ki, sonuncu Rayan nəyin bahasına olursa-olsun xilas edilməlidir, o ölməməlidir.

Deyə bilərsiniz bu, kinodur, həyatda belə şeylər olmur. Ancaq məsələ ondadır ki, "Sıravi Rayanı xilas etməli" filmi real əhvalatlar əsasında çəkilib. 1942-ci ilin noyabrında Sallivan qardaşları - düz beş doğma qardaş (!) Sakit okeanda yaponlarla döyüşdə həlak olub. Bundan sonra Amerika ordusunda 135.15 nömrəli xüsusi əmr imzalanıb, bu əmrə "sonuncu sağ qalan siyasəti" adı qoyulmuşdu. Daha sonra, 1971-ci ildə Amerika Konqresi bu siyasəti təkmilləşdirərək qanun qəbul eləyib: həmin qanuna əsasən nəinki qardaşı orduda həlak olan və tək qalan şəxsi əsgərliyə aparmırlar, bu, ümumiyyətlə, əsgərlikdə hər hansı qohumu ölən şəxslərə də aid edilib. Yəni kimsə ölüb, 2 qardaşı sağdırsa, onları da aparmırlar.

Təəssüf ki, bizim ölkədə belə insani, humanist kriteriyalar nəzərə alınmır. Özü də bu tarixən belə olub. Örnək üçün, mənim uşaqlıq yaddaşımda Füzuli rayonu Aşağı Seyidəhmədli kəndində yaşayan Zabitə xalanın kədərli duruşu həkk olunub. Onu həmişə "9 may" qələbə günü münasibəti ilə tədbirlərdə qabaq sıraya qoyurdular, çünki Zabitə xalanın 3 oğlu II dünya savaşından (o vaxtlar deyilən kimi, "Böyük Vətən müharibəsi") qayıtmamışdı.

Mən 1999-cu ildə cəbhə xəttində əsgərlikdə olanda bir sabirabadlını, hardasa 30 yaşlı ailəli şəxsi də ora xidmətə gətirmişdilər. Onun qardaşı 1992-ci ildə Qarabağ döyüşlərində həlak olmuşdu.

Bir səhər isə qonşu postdan çavuş tələsik bizim yanımıza gəldi: onunla eyni postda dayanan 4 əsgər qaçmışdı. Mən latın qrafikasını bilən əsgər kimi onların fərarilik sənədlərinin hazırlanmasında tabor komandirinə yardım elədim və bu zaman şok faktla üzləşdim: onların dördü də ikiqat yetim idilər!

Mən indi burda "yetim-yesirləri niyə cəbhə xəttinə basırlar" söhbətini təzədən açmaq istəmirəm, onsuz xeyri yoxdur. Ancaq Rəşad Cəfərzadənin əhvalatı deputatxanada oturan fərarilərin olmayan vicdanını heç olmazsa azacıq tərpətsin və hərbi xidmətə çağırış haqda qanunlara yenidən baxılsın. Demirəm tam Amerikadakı kimi eləyin, onsuz buna gücünüz yoxdur, peşəkar ordu xəyallarımız da neftin ölməsi ilə ölməkdədir, orduda maaşların azalması xəbərləri gəlir. Ancaq heç olmazsa evin tək oğlu, ikiqat yetim kimi uşaqlara güzəştlər edin, onlar cəbhə xəttindən uzaqda qulluq eləsin, ya da hansısa alternativ xidmət keçsinlər. Yoxsa adamın pisinə gəlir, hərdən "Şəhidin oğlu şəhid oldu" kimi xəbərlər də oxuyanda vətəni sevmək istəmirsən, çünki bir ailəni qıran, başqa ailəni isə piyləyib bəsləyən ərazinin adına vətən deyilmir.



# Rusiyanın Ermənistanı xilas planı - həm də Bakının əli ilə?

## Kremlin Tiflisə qaz ultimatumunun məkrli pərdəarxası -işğalçının energetik təminatında Azərbaycana aralıq ölkə rolu ayrıla bilər; növbəti mərhələdə Abxaziyadan keçən Moskva-İrəvan dəmir yolu işə salınacaq; **gürcü ekspert:** "Rusiya Gürcüstanı öz protektoratlığına qaytarmaq istəyir, Azərbaycan da hədəfdədir..."

**Gürcüstanın qaz təchizatı ətrafında Azərbaycanın da milli maraqlarına toxunan və geosiyasətin bulaşdığı müəmmalı Tiflis-Moskva danışıqları davam edir. Dünən bu mövzuda Gürcüstanın energetika naziri Kaxa Kaladze ilə Rusiyanın "Qazprom" şirkəti nümayəndələri arasında Vyanada növbəti müzakirələr aparılıb.**

Rusiya mənbələrinin xəbərinə görə, anlaşma yenə də baş tutmayıb, danışıqların predmeti dəyişməz qalıb və nəticə əldə edilənədək işçi prosesi davam elətdirmək barədə razılığa gəlinib. Hansı nəticədən və ya hədəfdən söhbət getdiyinə isə Vyanaya yola düşməzdən öncə Kaladze açıq işarə vurmuşdu.

Xatırladaq ki, jurnalistlərə açıqlamasında o, əvvəlcə Rusiyadan alınan qazın həcminin 12 faiz artırıla biləcəyini demişdi. **"Hələlik danışıqlar bir illik müqavilə üzrə gedir. Əgər Rusiyadan əlavə qaz almasaq, əhaliyə elektrik enerjisinin satış qiymətini 4-5 tetri artırmalı olacağıq"**, - deyə nazir xəbərdarlıq etmişdi.

Bunun ardınca o, danışıqların kifayət qədər maraqlı bir detalına toxunmuşdu. Sitat: **""Qazprom"la danışıqlarda Rusiya tərəfi tələb edib ki, Gürcüstan Ermənistana qaz tranzitinə görə haqqı pul kompensasiyası şəklində alsın. Gürcüstan bu şərtə əməl eləmək zorundadır. Ona görə ki, Rusiyanın Ermənistanı başqa tranzit vasitəsilə qazla təmin edə, nəticədə Gürcüstan tranzit imkanlardan məhrum ola bilər. Ona görə də Gürcüstan tranzit imkanlarını saxlamaq üçün mümkün olanı edir".**

Kaladze Ermənistana qaz nəqlinin başqa hansı ölkə üzərindən həyata keçirilə biləcəyini söyləməsə də, bu günlərdə mətbuata məlum olub ki, "Qazprom" İran variantından istifadə edə bilər. Belə ki, Rusiya şirkəti Azərbaycan üzərindən İrana ildə 10 milyard kubmetr qaz nəqlini planlaşdırır. Bunun əvəzində İran Ermənistanı qazla təchiz edəcək və qalan qaz həcmini Fars körfəzinə çıxararaq "Qazprom"a təhvil verəcək.

***

Azərbaycanın Gürcüstanı tranzit imkanlarından məhrum etməyə yönəlmiş və dolayısı ilə Ermənistanın İran qazı ilə təchiz edilməsinə yardımı nəzərdə tutan bu plana Bakının münasibəti hələlik bəlli deyil. Söhbət isə faktiki şəkildə Azərbaycanın da köməyi ilə işğalçı ölkənin energetik durumunu yaxşılaşdırmaqdan gedir. Bakının məsələyə reaksiyası yəqin ki, neqativ olacaq. O zaman Kreml Tiflis kimi onunla da ultimatum dili ilə danışa bilərmi?

Bu sual da açıq qalır. Yeri gəlmişkən, rəsmi Moskva zaman-zaman Azərbaycana qarşı da vaxtaşırı şantaj və hədə siyasətinə baş vurur. Məsələn, ötən il Rusiyanın Xarici İşlər Nazirliyi rəsmisi transxəzər qaz kəmərinin inşalı ilə bağlı sahilyanı ölkələri *(öncəliklə Azərbaycanı və Türkmənistanı)* hədələyərək bəyan eləmişdi ki, belə kəmərlər yalnız sahilyanı dövlətlərin hamısının (yəni Rusiyanın) razılığı ilə çəkilə bilər.

Qayıdaq Gürcüstan məsələsinə. Gürcüstanın energetika naziri Vyanaya yola düşməzdən əvvəl onu da bəyan etmişdi ki, Azərbaycan texniki olaraq Gürcüstana lazım olan həcmdə qaz verə bilməz. Sitat: **"Çünki Gürcüstanın Azərbaycandan qaz aldığı kəmərin həcmi məhduddur. Bu problemi qaz anbarının tikintisi ilə həll etmək olar, ancaq bunun üçün investisiya lazımdır".**

Azərbaycan isə fərqli mövqedədir. Lakin az öncə SOCAR prezidenti Rövnəq Abdullayev Tiflisdə danışıqlar aparsa da razılıq əldə olunmamışdı. Bir sıra təhlilçilərə görə, səbəb həm də geosiyasi amillərlə bağlıdır. Hesab edilir ki, Gürcüstanın indiki Rusiyapərəst hökuməti Moskva ilə ölkənin energetik müstəqilliyinə xələl gətirəcək geosiyasi bazarlıq içindədir. Belə planlara və sövdələşmələrə etiraz olaraq Tiflisdə neçə vaxtdır müxalifət qüvvələri hökumət əleyhinə permanent etiraz aksiyaları keçirir.

***

**Gürcü politoloq Gela Vasadze** də eyni narahatlıqları bölüşür və o qənaətədir ki, Moskva Gürcüstanı daha çox öz tranzit imkanlarını artırmaq məqsədilə ələ keçirməyə çalışır (axar.az): **"Düşünmürəm ki, Moskvanın məqsədi yalnız SOCAR-ı Gürcüstanın qaz bazarından çıxarmaqdır. Əlbəttə, belə məqsəd var, amma bu uzunmüddətli və siyasi hədəfdir. Gürcüstan elə də böyük bazar deyil ki, bu situasiyada nə isə həll etmək mümkün olsun. Digər məsələ odur ki, Gürcüstan Moskvaya tranzit ərazi kimi maraqlıdır. Məhz Bakı-Tiflis-Ceyhan neft kəmərinə görə bu gün Azərbaycan Rusiyadan asılı deyil. Beləliklə, burada ikili məqsəd güdülür: əsas amil öz qazının Gürcüstan ərazisindən tranzitini təmin etməkdir. İkinci amil isə sanksiyalar altından çıxan İranı müxtəlif yollarla öz qaz satışı sxeminə bağlamaq istəyidir. Gürcüstandan SOCAR-ın çıxarılması üçüncü və daha uzağa hədəflənmiş məqsəddir".**

Politoloq "Qazprom"la aparılan danışıqlardan sonra növbəti hədəfin Moskva-İrəvan dəmiryolu layihəsinin reallaşdırılması olacağını da bildirib: **"Kreml Gürcüstanı yenidən öz protektoratlığına qaytarmaq istəyir. Moskva sonuncu parlament seçkisinə 1 milyard dollardan çox pul xərcləməklə hakimiyyətə rus oliqarxını gətirməyə nail oldu. Bu il keçiriləcək növbəti seçkidə isə onların nə güclərinə, nə də pullarına heyfləri gələcək. Bu təsir Gürcüstana yox, həm də Azərbaycana hesablanıb. Poti limanı "Rosneft"ə satıldı. Bu, rusiyalı oliqarx İvanişvili tərəfindən reallaşdırılan Kreml planının bir hissəsi idi. Əgər Kreml özünün "Qazprom"la bağlı planını reallaşdıra bilsə, sonrakı hədəf məhz Abxaziya dəmir yolu layihəsi olacaq. Əsas məsələ cəmiyyətin buna qarşı mübarizə apara bilməsidir. Digər tərəfdən, Rusiyadakı böhran və Gürcüstandakı sosial-iqtisadi situasiyanın pisləşməsi onların fəaliyyəti üçün arzuolunmaz mənzərə yaradır. Onlar məhz buna görə öz planlarını reallaşdırmağa tələsirlər".**

***

Göründüyü kimi, Rusiyanın hədəfi daha böyükdür və təkcə öz forpostu Ermənistanı izolyasiyadan çıxarmağa yönəlməyib - təbii ki, prosesi öz nəzarətində saxlamaqla. Çünki Ermənistanın təcriddən çıxması nəzəri olaraq Kremlin maraqlarına cavab vermir. Gürcüstandan keçib Ermənistana aparan Abxaziya dəmiryolu isə Rusiyaya həm də daha rahat yolla ağır hərbi-texnika və silah-sursat daşımaq üçün gərəkdir ki, bu da yekun etibarilə işğalçı ölkənin daha güclü şəkildə hərbiləşdirilməsinə gətirəcək.

Bakı belə planlardan söz-süz ki, xəbərdardır. Əslində Azərbaycanın Avrasiya İqtisadi Birliyinə qoşmaq planı da Kremlin oxşar hədəfinə hesablanıb - Ermənistana Azərbaycandan quru yolu açmaq, Gürcüstanı təkləmək, bölgəni tam olaraq öz nəzarətinə götürmək. Lakin keçən ilsonu xarici işlər naziri Elmar Məmmədyarov verdiyi müsahibədə bu ehtimalı sıfırlamış oldu. Nazir söyləmişdi ki, Ermənistan işğalçılıq siyasətinə son qoymayınca, Rusiyanın onunla Azərbaycan vasitəsilə quru əlaqəsi mümkün olmayacaq.

Yəqin ki, Bakının bu mövqeyi Ermənistanın qaz təchizatı və Abxaziya dəmiryolu məsələlərində də qüvvədədir. Əks halda, Azərbaycanla Gürcüstanın Rusiya protektoratlığına qaytarılması böyük zaman almaya bilər.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016

# Ayaz Mütəllibov - Etibar Məmmədov davası-ağır ittihamlar

## Keçmiş prezidentlə AMİP liderinin savaşına AXC İdarə Heyətinin sabiq üzvləri də reaksiya verdi

**20 Yanvar faciəsinin 26-cı ildönümü ilə bağlı müzakirələrdə keçmiş prezident Ayaz Mütəllibovla AMİP lideri Etibar Məmmədov arasında kəskin fikir toqquşması baş verib.**

Qeyd edək ki, AMİP liderinin faciənin ildönümü günü modern.az saytında “Aydınlıq” qəzetinin 1992-ci il, 17 aprel tarixli buraxılışına verdiyi müsahibə yayımlanıb. E.Məmmədov həmin müsahibədə bildirib ki, həbs edilməsi üçün ilk növbədə AXC İdarə Heyətindən, sonra isə Ayaz Mütəllibovdan razılıq alınıbmış. Xatırladaq ki, Etibar Məmmədov 1990-cı ilin 26 yanvarından 1 noyabrına qədər Moskvanın Lefortovo zindanında məhbus həyatı yaşayıb.

**Eks-prezident isə E.Məmmədovun dediklərini təkzib edib.** “Həbsinə razılıq verməyim barədə Etibar Məmmədovun söylədikləri tam yalandır. Elə bir şey olmayıb, ola da bilməzdi, çünki bu, mənim prinsipimə uyğun deyildi”. Bunu moderator.az-a açıqlamasında Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibov bildirib. A.Mütəllibov deyib ki, Etibar Məmmədov o həbsi KQB-nin həyata keçirdiyini çox gözəl bilir: “Bilmirəm, bu məsələni indi nə məqsədlə gündəmə gətiriblər. Etibar Məmmədov o vaxt bu fikirləri deməklə özünə xal qazanmaq istəyib. Etibar Məmmədov bilir, çox gözəl bilir ki, o həbsi Moskvanın KQB-si həyata keçirib”. **Eks-prezident maraqlı bir məqama da toxunub:** “Respublikada Ali Sovetə seçkilər keçirilməli idi. Rəhim Qazıyevla Etibar Məmmədov seçkidə iştirak edə bilməyəcəklərinə görə narahat idilər. O zaman onların qohumları mənə müraciət etdilər ki, hal-qəziyyə belədir. Onları buraxmağı məndən xahiş etdilər. Mən də dedim ki, çalışaram və çox güman həll edə bilərəm. Həll olundu və ikisi də seçkilərdə iştirak etdi, Ali Sovetin tərkibinə düşdülər. Bundan danışsınlar da. Bu nanəciblər bundan niyə danışmırlar? Bəyan edirəm ki, Ayaz Mütəllibovun respublikanın rəhbər vəzifələrində çalışdığı zamanlarda heç kim cəzalandırılmayıb, heç kimi türməyə basmamışıq. Moskva KQB-sinin həbs etdirdiklərini də buraxdırmışıq. Şəxsən mənim sayəmdə”.

**Etibar Məmmədov “Aydınlıq” qəzetinin 1992-ci il, 17 aprel tarixli buraxılışına verdiyi müsahibədə Hikmət Hacızadəni onun həbsinə razılıq verməkdə ittiham edir:** “Mənim mətbuat konfransımdan sonra Hikmət Hacızadə Moskvaya zəng edib bildirib ki, Etibar Məmmədovun danışıqlar aparmağa heç bir səlahiyyəti yoxdur, onunla danışıqlar aparılmasın. Çox keçmədən müstəntiqin də etiraf etdiyi kimi, AXC İdarə Heyətinin belə münasibətindən sonra həbs olunmağım qərara alınıbmış. Beləliklə, mənim həbs edilməyim üçün ilk növbədə AXC İdarə Heyətindən, sonra isə Ayaz Mütəllibovdan razılıq alınıbmış. Bu da bəllidir ki, məni 9 ay yarım həbsdə saxlamaqda məqsəd milli hərəkatı zəiflətmək idi”.


Ayaz Mütəllibov


Etibar Məmmədov

**Eks-prezident Ayaz Mütəllibov isə Etibar Məmmədovu bu yanaşmasına görə nanəciblikdə ittiham edib. Modern.az-a açıqlamasında AMİP lideri bunları bildirib:** “O adam başını itirib, olmayan şeylərdən danışır. Mən heç zaman heç kimə azad olunmaq üçün müraciət etməmişəm. Əksinə, Ayaz Mütəllibov və onun kimiləri həbsdə olduğum zaman (Lefortovada-red.) məndən xahiş edirdilər ki, Bakıda sakitliyin yaranması üçün xalqa müraciət edim. Onlar özlərinə şərait yaratmaq üçün dəfələrlə yanıma adam göndərmişdilər”. **E.Məmmədovun sözlərinə görə, milli azadlıq hərəkatının üzvlərinin həbsdən azad olunmasında A.Mütəllibovun heç bir rolu olmayıb.** “Ayaz Mütəllibov özünü zəif prezident kimi göstərdi, zəif prezident xalqına heç bir xidməti olmayan şəxs kimi tarixdə qaldı. Ona görə də onun danışmağa heç bir haqqı yoxdur. Susub yerində otursa və üzüsulu bu dünyadan getsə, daha yaxşı olar”-AMİP lideri deyib.

**AMİP funksioneri Əli Orucov isə eks-prezident Ayaz Mütəllibovun Etibar Məmmədov haqqında səsləndirdiyi ittihamlara etirazını yazılı şəkildə moderator. az-a göndərib. Ə.Orucov bildirib:** “Ayaz Mütəllibovun Etibar Məmmədovu Lefertovo zindanından azad etdirməsi və deputat seçdirməsi ilə bağlı mətbuata verdiyi son açıqlamaları sayıqlama və yalandan başqa bir şey deyil. Azərbaycana rus qoşunlarını çağıraraq Bakıda və digər bölgələrimizdə qanlı qırğınlar törədilməsində, eləcə də Xocalı faciəsində birbaşa məsuliyyət daşıyan bir şəxsin utanıb qızarmadan, həyasızcasına cəmiyyət qarşısına çıxıb nəsə söyləməsi onu göstərir ki, həqiqətən də dünyanın sonu yaxınlaşmaqdadır.

Bir ayağı gorda olan Ayaz Mütəllibov hələ də Azərbaycan xalqına düşmən münasibətindən nəinki əl çəkməyib, hətta daha da artırıb. Özü də çox yaxşı anlayır ki, onu bu ağır, rəzil, acınacaqlı duruma salan xalqın ona sonsuz nifrəti və lənətidir. Xalq tərəfindən lənətlənən insana isə əlavə nəsə demək artıq olardı.

Maraqlıdır ki, mərhum prezident H. Əliyevin hakimiyyəti dövründə barəsində cinayət işi qaldırılaraq, axtarışa verilən, istintaqdan qaçaraq Moskvada gizlənən Ayaz Mütəllibova necə olur ki, birdən-birə Azərbaycanda peyda olur? Eks-prezident statusu ona da şamil olunur və bu gün hakimiyyətə güclü təsirləri olan məlum qüvvələrin hər cür qayğısı ilə əhatələnib. Sonra da mövcud iqtidar özlərini bütün sahələr üzrə H. Əliyevin davamçıları kimi cəmiyyətə təqdim edirlər.

Zamanın özü ən ədalətli hakimdir. Bu onu göstərir ki, milli faciələrimizin törədilməsində kimlərin rolu nədən ibarət olub..."

E.Məmmədovun və Ə.Orucovun səsləndirdiyi sərt ittihamlara A.Mütəllibovun münasibətini öyrənmək istədik. Lakin israrlı zənglərimizə baxmayaraq, eks-prezident telefonu açmadı.

Mütəllibov-Məmmədov davası ilə bağlı AXC İdarə Heyətinin keçmiş üzvlərinin də münasibətini soruşduq. Təəssüf ki, adı hallandırılan Hikmət Hacızadə ilə danışa bilmədik.

**AXC İdarə Heyətinin üzvü olmuş Pənah Hüseyn bildirdi ki, bu məsələyə vaxtilə aydınlıq gətirilib:** “AXC-nin İdarə Heyətinin bu məsələdə iştirak etməsi barədə deyilənlər həqiqətə uyğun deyil. Digər məsələlərə isə Ayaz Mütəllibov özü cavab verə bilər”.

**AXC İdarə Heyətinin sabiq üzvü Sülhəddin Əkbər isə Azərbaycan hakimiyyətinin bu prosesdə iştirakını mümkün saydı:** “Həmin dövrdə hələ SSRİ dağılmamışdı, mövcud idi və Azərbaycan hakimiyyəti də Moskva ilə, Kremllə sıx koordinasiya şəraitində işləyirdi. Təbii ki, siyasi həbslərdən yerli siyasi hakimiyyətin xəbərinin olmaması qeyri-mümkün idi".

❑ **Cavid TURAN**

# Kütlə umsuğu - yaxud Əli Kərimlinin təlxəklərinin sevinci



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Bəzi tiplər var ki, onlar üçün harada, hansı tədbirdə olmasının fərqi yoxdur. Fürsət düşən kimi, özünün əsgərlik xatirələrindən, komandirinin qızının ona vurulub dərdindən dəli olmasından, hərbi hissənin həyatında “botinka” ilə deyil, şap-şapla gəzməsindən danışır. Yaxud da elə adamlar var ki, onlar musiqi səsi gələn kimi, qeyri-ixtiyari oynamağa başlayırlar. Və ya elələri mövcuddur ki, onlar özlərini olduqlarından daha qüdrətli göstərməyə çalışır, söz düşən kimi, bütün qəsəbənin, rayonun adamlarının onu özünə guya ağsaqqal hesab etdiyini iddia edir. Hansı ki, hörməti bir qoz da deyil...**

Əlbəttə, bütün bunlar hamısı müəyyən psixoloji qüsurlardır. “Hər kəs öz olmayanından danışmağı sevər” məsələsi...

Siyasi arena da bəlalərindən hali deyil. Təbii ki, bu cür olaylar siyasilər arasında bir qədər fərqli kontekstdə cərəyan edir. Məsələn, bir ara “dəb” düşmüşdü, bir çox cəbhəçilər AXC hakimiyyəti dönəmində özlərinin “sözü eşidilməyən ağıllı məsləhətçi” obrazlarını yaradırdılar: “Mən Bəyə dedim ki, ay bəy...” Hansı ki, o adamların 90 faizi ən yaxşı halda Elçibəyi konfrans zalında çıxış edəndə 100 metr məsafədən görmüşdülər...

Yaxud da özlərini ictimai-siyasi prosesin lokomotivi, yönəticisi kimi təqdim etmək istəyənlər də çoxdur. Guya ən yaxşı ideyaları bu verirmiş, bütün planları bu cızırmış və sair.

Xülasə, bu siyasət meydanında hər ağılda adam müşahidə etmişəm. Amma bir “lider” də var ki, onun analoqu yoxdur. O, 15-20 adamı bir yerdə görəndə dərhal ayağının altına kətil qoyub çıxış etmək istəyir. Yaxud da biri peşman olur toya çağırır, gedib mikrofonu əlinə alıb toya şənlənməyə gələn adamları “mitinqçi”, “yurdçu” hesab edərək, “bu rejimmmmm....” hayqırtıları ilə çıxış edir. Hətta mən şahidi olmuşam ki, bu adam xəstəxanada yatan şəxsin yanına şəkil çəkdirmək üçün gedəndə, palatada 5-6 xəstəni, tibb işçisini bir yerdə görərək coşub, iqtidar əleyhinə çıxışlara başlayıb. Onun bu düşünülməmiş hərəkətindən sonra həkimlər az qalıb xəstəni xəstəxanadan qovsunlar...

Əlbəttə, söhbət “AXCP-Yurd”un sədri Əli Kərimlidən gedir. Yanvarın 20-də - şəhidlərimizin anım günündə də bu adam öz hikkəsinə sadiq qaldı. Bir video, bir neçə foto yaydılar ki, bəs ziyarətgaha gedən yolda Əli Kərimlinin arxasınca yüzlərlə adam addımlayır. Əli Kərimlinin müridləri bu şəkilləri paylaşıb milli matəm günündə də şou çıxarmaqdan çəkinmədilər. Təbii, Əli Kərimli bu şəkillərə baxıb xüsusi zövq almasaydı, gözlərini yumub o kütləni öz “axe-ce-pe-çi”ləri zənn etməsəydi, bu şounun düzəldilməsinə qarşı çıxardı. Amma o özü də şoudan zövq alırdı. Əslində isə məsələ belə idi; Əli Kərimli “başını işlədərək” Şəhidlər Xiyabanının girişində addımları yavaşlatmış, nəticədə arxadan şəhidləri ziyarətə gələn sadə adamlar onların arxasında görünmüşdü. O da fürsətdən istifadə edib şəkil çəkdirmişdi ki, baxın, mənim tərəfdarlarımdır. Sonra bəlli oldu ki, şəkildəkilərin əksəri hərbçilərdir...

Təsəvvür edin, özünü lider hesab edən adam gülüş ustası Şabanın (Kamal Sunal) variantlarından istifadə edərək, “kütləni arxasınca aparır”. Şəhidlərin anım günündə belə bir şou düzəltmək ancaq bu pafos ustasının ağlına gələ bilər və icra edilərdi...

Bu cılızlığı ifşa ediləndən sonra isə Kərimli müridlərinə yenə də sosial şəbəkələrdə “Yeni Müsavat” və onun kollektivini təhqir etmək əmrini verdi. Yeri gəlmişkən, Əlinin saxta profillərini idarə edən Əbülfəz Qurbanlı partiyadan gedəndən, Məmməd İbrahim və Fuad Qəhrəmanlı həbs ediləndən sonra sosial şəbəkələrdə bir az sakitlikldir. Həmin fake profilləri Əli özü təkbaşına idarə edib çatdıra bilmir. Amma yenə də bir dəstə gerizəkalı, zombiləşmiş əliçi söyüş söyməkdə davam edir. Bu cılızlıqda adam utanmadan hakimiyyətə iddia edir. Müxalifətdə olarkən bir media orqanına, jurnalistlərə qarşı bu qədər tərbiyəsizlik nümayiş etdirən şəxs və onun ətrafındakı zombi dəstəsi hakimiyyətdə olarsa nə baş verər? Güllələyərlər bizi!

Odur ki, məhz ömürləri elə beləcə - Şaban variantları ilə “lider” imitasiyaları etməklə keçəcək...

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016




# Jurnalistin anası oğlunu döyüb öldürənlərə ən ağır cəza istədi

## Rasim Əliyevin anası: "Onu soyundurmuşdular, ağzı, gözləri açıq idi..."

**Yanvarın 21-də öldürülən jurnalist Rasim Əliyevin işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti proses oldu. Əvvəlki proseslərdə təqsirləndirilən şəxslərdən 4-nün ifadəsi dinlənildiyinə görə yalnız biri qalmışdı.**

Saat 11:00-da hakim Eldar İsmayılovun sədrliyi ilə məhkəmə sonuncu təqsirləndirilən şəxs Samir Mustafayevin ifadəsi ilə başladı. O, irəli sürülmüş ittihamları qəbul etmədiyini söylədi: "Mərhuma Allah rəhmət eləsin. Burada oturanları tanımıram. Hadisə günü evdə idim. Elşənin bibisi oğlu mənə zəng vurub dedi ki, dayım oğlu "Bayıl" marketi tanımır, onu həmin yerə aparmaq lazımdır. Bir şəxslə görüşəcəyini də dedi. Mən də onları deyilən yerə apardım. Biz ora çatandan 1 dəqiqə keçmədi ki, rəhmətlik Rasim gəldi. Söhbəti bilmədiyimə görə kənara çəkildim. Əvvəl mənə demişdilər ki, bir şəxslə görüşüb, anlaşılmaz olan məsələni aydınlaşdırmalıyıq. Söhbət zamanı qəflətən gördüm ki, dava düşdü. Yaxınlaşıb Rasimi yerdən qaldırdım. O da qaçıb getdi. Qayıdanda "Bibiheybət" məscidinə namaz qılmağa getdik".

**Təqsirləndirilən şəxsin ifadəsinin bu yerində mərhumun anası Teyfurə Əliyeva ona cinayətdən xəbərdar olduğunu, yalan danışdığını bildirdi. S.Mustafayev mərhumun anasına belə cavab verdi:** "Bilsəm, heç onları ora aparardım? Kim özünü oda atar? Videodan görünür ki, nə Kənan, nə də mən onu vurmamışıq. İnsanlıq niyyəti ilə ona kömək etmişəm. Amma indi görürəm ki, insanlıq lazım deyilmiş. Maşınla qayıdanda bir az peşmançılıq oldu. Kənan dedi ki, gərək ona qarşı belə etməyəydik".

Bundan sonra təqsirləndirilən şəxsin istintaqdakı ifadələri elan olundu. Onun ifadələrində ciddi ziddiyyətlər ortaya çıxdı. Belə ki, Mustafayev istintaqda Elşənin ona zəng vurduğunu, bibisi oğlu barədə Rasim Əliyevin təhqiramiz ifadələr işlətdiyini deyib. Amma məhkəmədə təqsirləndirilən şəxs ifadəsinin tam əksini söyləyərək, söhbətdən xəbərsiz olduğunu qeyd etdi. Yaranan ziddiyyətə o, bu cür aydınlıq gətirdi: "Müstəntiq istintaqda ağlına gələni yazıb".

S.Mustafayevin vəkili istintaqda yazılan ifadənin hərf səhvinə qədər eyni olduğunu bildirdi.

Bununla da təqsirləndirilən şəxslərin ifadələri başa çatdı. Məhkəmə zərərçəkmiş tərəfin ifadələri ilə davam etdi.

**İlk olaraq, öldürülən jurnalistin anası Teyfurə Əliyeva ifadə verdi:** "Şənbə günü olduğundan Rasim yuxudan gec durdu. Yemək hazırladım. Həmin vaxt ona zəng gəldi. Rasim danışa-danışa koridora getdi. Əvvəl sakit, ardınca gərgin danışdı. Soruşanda əvvəl demədi. Oğlum danışan vaxt onun dilindən söyüş eşitmədim. Ard-arda zənglər gəldi. Narahat olub, səbəbini soruşdum. Rasim dedi ki, Cavid adlı futbolçu var, nalayiq hərəkət edib, mən də fikrimi yazmışam. O, yazdıqlarının qarşı tərəfdə qıcıq oyatdığını bildirdi. Mənə dedi ki, zəng edən Cavidin özü idi, o mənada əl işarəsi göstərmədiyini deyirdi. Rasim onu da bildirdi ki, razılaşdıq, ona bununla bağlı status yazmağın vacib olduğunu dedim. Oğlum Cavidin hərəkətlərini təkcə onun yox, çox adamın səhv başa düşdüyünü də futbolçuya demişdi. Cavid oğluma deyib ki, yazdıqlarından xəbərim olmayıb, mənə qohumum deyib. Rasim mənə dedi ki, Cavidə bibisi oğlunun məni təhqir etdiyini dedim, o da üzr istəniləcəyini söylədi. Sonra gördüm ki, Rasim hazırlaşıb evdən çıxır. Soruşanda onlarla görüşə getdiyini bildirdi. Dedi ki, oturub çay içəcəyik. Mən onun getməyinə razı olmadım. Gərginliyi olmasa da, narahat idi. Dedim ki, oğlum, səni aldadarlar. Gülə-gülə söylədi ki, Cavidlə kişi sözü danışmışıq. O gedəndən bir az sonra bu hadisəni eşitdim. Zəng etdim, Rasimin telefonuna cavab verən olmadı. Elşən də, Cavid də kişiliyə yaraşmayan hərəkətlər etdilər. Rasim döyüldükdən sonra qaçarkən başını ağrıdan tutub qışqırırmış. Birtəhər maşınla xəstəxanaya gedib. Bir saatdan sonra olduğu yer barədə xəbər tutdum. Ora gedəndə Babək həkim dedi ki, narahat olmayın, ciyəri təmizdir, qabırğalarında sınıq var. Amma oğlum deyirdi ki, qulaqlarım eşitmir. Orada oğluma qarşı laqeyd münasibət gördüm. Hətta onunla həkimlər arasında da gərginlik olmuşdu. Rasimə yer belə verməmişdilər. Orada Babək həkimin sözlərinə inandım".

**Mərhumun anası həkimlərin məsuliyyətə cəlb olunmalarını tələb etdi:** "Əgər Rasimin vəziyyəti ağır idisə, niyə dərhal əməliyyat olunmadı? Deməli, bizi aldadıblar. Rasimə həkim deyib ki, ayaqüstə gəzmə, ciyərlərinə su yığılar. Oğlum onda bildirib ki, mənə yer vermirsiniz, harada uzanım? Bunu deməkdə məqsədim odur ki, Rasimə qarşı bu qədər laqeyd münasibət olub. Sonradan ona yer verib, sistem qoşdular. Gecə saat 11-ə qədər orada oldum. Sonradan evə onun üçün yemək, paltar gətirməyə getdim. Dostu Rasimin yanında qaldı. Gecə saat 1-ə qalmış Babək həkim zəng vurub dedi ki, Rasimin vəziyyəti pisləşib, qan qusur, təcili əməliyyata götürürük. Yarım saata xəstəxanaya çatdım. Əməliyyat otağının qabağında həkimlərdən Saday və Babəki gördüm. Saday həkim dedi ki, bunun vəziyyəti ağırdır, hər iki tərəfdən qabırğaları sınıb, ciyərləri dağılıb, dalağı yoxdur. Babək həkimə bizi niyə aldatdığını soruşdum. Açıq şəkildə mənə dedi ki, söz idi, dedim də. Reanimasiyaya girdim, Rasimi soyundurmuşdular. Ağzı, gözləri açıq idi. Cansız bədənə oxşayırdı. Bəlkə də həmin vaxt artıq dünyasını dəyişmişdi. Ona süni aparat qoşmuşdular. Bilirdim ki, oğlum artıq həyatda yoxdur, amma yenə də ümidimi üzmürdüm. Həkimə dedim ki, yarım saata gəlmişəm, ağır əməliyyat bu qədər qısa vaxta bitə bilməz axı. Oğlum əvvəlcədən ölmüşdü, cərrahiyyə əməliyyatına ehtiyac qalmamışdı. Ölmüş şəxsi əməliyyat adı ilə gecə səhərə saxlayıb, bizi aldatdılar. Mən evə gəldiyim vaxt Cavid və meneceri Rasimin yanına gəliblər. Polis gələn vaxt Cavid gedib. Əgər günahı yox idisə, niyə qaçırdı? Oğlumu döyənlərin hamısı onunla görüşə bu məqsədlə gediblər. Oğlumu Cavid aldadaraq, baş verənləri təşkil edib. Əgər söyüş olsaydı, Elşən, oğlum sənə hörmətli sözünü feysbukda yazmazdı. Polisə də Rasimin özü xəstəxanada olanda yanımda zəng vurdu. Övladımı bunlar döyməsə, o, xəstəxanaya düşməzdi, həkimlər də səhlənkarlıq etməsələr, Rasim ölməzdi. Prezidentə müraciət etmişik, həkimlərlə bağlı. Rasimin ölümündə həm də onlar günahkardır. Təqsirləndirilən şəxslərə ən yuxarı hansı cəza düşürsə, onu da verin".

İfadələrdən sonra hakim prosesin 26 yanvar saat 10:30-da davam edəcəyini elan etdi.

**Məhkəmədən sonra zərərçəkmiş tərəfin vəkili Fariz Namazlı proses barədə jurnalistlərə açıqlama verdi:** "Samir Mustafayev ifadə verərək, hadisə barədə məlumatsız olduğunu söylədi. Amma məlumatsız idisə, niyə gedirdi? Bu suala o, cavab verə bilmədi. Rasim Əliyevin anası ifadəsində Cavid Hüseynov və Elşən İsmayılovun oğlunu evdən çıxardaraq, görüşə çağırdıqlarını bildirdi. Həkim səhlənkarlığı da göstərildi. Növbəti prosesdə digər şəxslər, o cümlədən Cavid Hüseynov və digərləri ifadə verəcəklər".

❑ **Cavanşir ABBASLI**

# Əli Abbasov həbsdəki aparat rəhbərini şantajda günahlandırdı

## Sabiq nazir hələ İqtisad Universitetindən birgə işlədikləri işçisi haqda danışdı: "Vidadi Zeynalovdan belə bir şey gözləmirdim"; Əli Abbasov narahat deyilsə, niyə...


Vidadi Zeynalov

**Ötən ilin oktyabr ayının 17-də milli təhlükəsizlik naziri Eldar Mahmudovun işdən çıxarılmasından sonra paralel olaraq Rabitə və Yüksək Texnologiyalar Nazirliyində (RYTN) də həbslər həyata keçirildi. Nazirliyin yüksək rütbəli əməkdaşları, o cümlədən aparat rəhbəri Vidadi Zeynalov, Beynəlxalq Əlaqələr və Hesablaşmalar Mərkəzinin direktoru Cəlil Cəfərov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynov və digərləri həbs olundular.**


Əli Abbasov

Hələ o zaman nazir vəzifəsində işləyən Əli Abbasovun israrla həbs edilənləri müdafiə etməsinə baxmayaraq, tezliklə saxlanılanların çevrəsi daha da genişləndi. İlkin araşdırmalar göstərdi ki, RYTN-də rüşvətxorluq, korrupsiya, dövlət əmlakının mənimsənilməsi geniş vüsət alıbmış.

Noyabrın 12-də dövlət başçısının sərəncamına əsasən, YAP Siyasi Şurasının üzvü olan Əli Abbasov da vəzifəsindən kənarlaşdırıldı. Artıq bir neçə aydır ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi, eləcə də Vergilər Nazirliyi RYTN-də yoxlamalar aparır. Aşkarlanmış korrupsiya faktları ilə bağlı Baş Prokurorluqda bir neçə cinayət işi başlanıb.

Prezident İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin toplantısında RYTN-də baş verən korrupsiya faktlarından danışıb. Dövlət başçısı deyib ki, yoxlamalar göstərib ki, burada böyük cinayətdən söhbət gedir: "İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir - 3 dəfə, 4 dəfə. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir". Prezidentin bu mövqeyindən sonra sabiq nazirin tezliklə həbs ediləbiləcəyi barədə xəbərlər yayılmışdı.

*Əli Abbasov ötən gün unikal.org. saytına qısa müsahibə verib. Müsahibəni təqdim edirik.*

***- Əli müəllim, salam, necəsiz? Hazırda hardasınız?***

- Hazırda şəhərdəki evimdəyəm, istirahət edirəm.

***- Məlum olaylarla bağlı istintaqa ifadə vermisiz, ümumiyyətlə, bununla bağlı istintaq orqanlarına gedib-gəlirsizmi?***

- Heç yerə getməmişəm. Evdə oturmuşam. İstintaqa da çağırılmamışam.

***- Belə çıxır ki, cinayət törədənlər tutulan şəxslər olub...***

- Verdiyiniz qiymətə və ədalətli mövqeyinizə görə çox sağ olun.

***- Nazirliyin keçmiş aparat rəhbəri Vidadi Zeynalov deyib ki, oranın naziri mən deyiləm ki, bütün məsuliyyət mənim üzərimdə olsun. Bu barədə nə deyə bilərsiniz?***

- Mən çox təəssüf edirəm ki, Vidadi Zeynalov belə bir fikir səsləndirib. Ondan belə bir şey gözləmirdim. Bu, əslində şantajdır.

Qeyd edək ki, V.Zeynalovla Ə. Abbasov hələ İqtisad Universitetində bir yerdə işləyiblər.

Belə ki, Əli Abbasov İqtisad Universitetinin rektoru olanda prorektor vəzifəsini Vidadi Zeynalov tutub. Əli Abbasov nazir getdikdən sonra o da aparat rəhbəri postuna yerləşib.

Əli Abbasov müsahibəsində ürəkli görünməyə çalışsa da, V.Zeynalovu şantajda ittiham etməsi onun narahatlığından xəbər verir.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016

# Mağazalar alıcıları aldadır - həm qiymətdə, həm də məhsulda...

## Saxta məhsullar ölkəni bürüyüb; **Eyyub Hüseynov:** "Mağazalarda məhsulların 65 faizinin üzərindəki yazılar başa düşülmür"

**Marketlər alıcıları aldatmaqda davam edir. Vitrində olan hər hansı məhsulun qiymətini üzərində düzgün göstərməyən bir sıra marketlər alıcılardan bu yolla nisbətən daha çox pul əldə etmiş olur. Belə ki, vitrində məhsulun altına yapışdırdıqları qiymət həmin məhsulun deyil, onun yanındakı məhsulun qiyməti olur. Alıcı bilmədən məhsulu götürür, kassada isə qiymət məlum olanda artıq gec olur.**

Çekdə başqa qiymət görən alıcılar bunu irad tutanda satıcılar vitrinə yapışdırılan qiymətin əslində həmin məhsula aid olmadığını və səhv yapışdırıldığını deyərək, alıcıya "koduna baxardınız" deyərək irad da tuturlar. Baş çəkdiyimiz bir neçə marketdə alıcının kassada bu problemə görə mübahisə etdiyinin də şahidi olduq. Hətta kassada başqa qiymətlə rastlaşan bəzi alıcılar onu almaqdan imtina edirdilər. Bununla yanaşı, saxta məhsullar da ölkəmizi bürüyüb. Bir sıra məhsulların xaricdən gəldiyi deyilir, lakin onun doğrudan da yerli məhsul olmadığını sübut edən heç bir məlumata, ştrix koda rast gəlinmir. Bu halı daha çox kərə yağlarında hiss edirik. Bəzi yağlar xarici marka adı altında satılır, lakin ölkədə düzəldilir. Azərbaycanda əhalinin kərə yağına olan illik tələbatı təxminən 35 min tondur. Rəsmi məlumatlara görə, bunun üçdə ikisi ölkədə istehsal olunur, qalanı xaricdən gətirilir. Ölkəyə əsasən Rusiya, Ukrayna, Belarus, Almaniya, Avstraliya və Yeni Zellandiyadan yağ idxal olunur. Bir çox istehsalçılar məhsulların üzərinə rus və ya hansısa xarici ad yazmaqla alıcıları bu məhsulun xaricdən gətirildiyinə inandırmağa çalışır. Lakin diqqət edəndə görürük ki, məhsulun qablaşdırmasının harada aparıldığı kiçik hərflərlə olsa da, qeyd edilib. Alıcıları aldatmaq üçün hətta məhsulun üzərinə xarici ölkənin ştrix kodu vurulur.

**Qeyd edək ki, istehsalçıların aldadılması yalnız marketlərdə deyil, bazarlarda da baş verir. Bazardan 1 manata aldığımız kartoflar texniki kartof imiş. Bunu mətbuata açıqlamasında aqrar sahə üzrə mütəxəssis Vahid Məhərrəmov deyib:** "Bütün parametrlərinə görə bu gün satışa çıxarılan və çox ucuz qiymətə, təxminən 3-4 qəpiyə ölkəyə idxal olunan, hazırda isə 1 manata təklif olunan kartof birmənalı olaraq texniki sortdur".

Ekspert idxal zamanı bu məsələyə göz yumulduğunu, müəyyən anlaşmaların olduğunu, ancaq əlaqədar qurumların bunu boyunlarından atdığını söyləyir. Rəsmi qurumların texniki sort kartofun satışda olduğunu təkzib etməsinə baxmayaraq, ekspert bu istiqamətdə çoxlu faktlar aşkarlandığını vurğulayıb.









**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Azərbaycanda istehsal edilən məhsulun üzərinə xarici ölkənin ştrix kodunun qoyulmasını qanunun qadağan etmədiyini dedi:** "Bununla bağlı Azad İstehlakçılar Birliyinə nümunələr də gətirilir. Bütün bu problemləri həll etmək mümkündür. Rusiyada uzun müddətdir istehlakçı üçün "məlumat standartları" var. Üç il bundan öncə Azad İstehlakçılar Birliyi Azərbaycanda olmayan bu standartın yaradılmasını və minimum təcrübə həyata keçirilməsini istədi. Lakin bizim komandamız bunun öhdəsindən gələ bilmədi. Biz dövlət qurumlarına müraciət etdik. Keçən ilin sonunda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu xidməti istehlakçılar üçün məlumat standartı tətbiq etdi. O standart tətbiq edilsə də biz bundan razı deyilik. Çünki standartda şriftin böyüklüyü məsələsi göstərilməyib. Yəni malların üzərinə məlumatı elə yazırlar ki, gözü zəif görən insanlar onu oxuya bilmir. Məsələn, spirtli içkilərin buraxılma tarixi və yararlılıq müddəti göstərilməyib. Bunun kimi bir çox çatışmazlıqlar mövcuddur. Həmin standartlar düzgün tətbiq olunsa, əlbəttə ki, bu kimi hallar baş verməz".

**Qurum sədri məhsulların 65 faizinin başa düşülməyən dildə olduğunu dedi:** "Məsələn, "Kontinental" mağazalar şəbəkəsində məhsulların 65 faizinin üzərindəki yazılar, ümumiyyətlə, başa düşülməyən dildədir. Texniki vasitələr, avtomobillərin uyğun sənədlərin təxminən 60 faizi Azərbaycan dilində deyil. Bu da dövlət dili haqqında qanuna zidddir. Ərzaq məhsullarına gəlincə isə bu sahədə də ciddi problemlər var. Çox təəssüflər olsun ki, Azərbaycan istehsalçıları nədənsə xarici mallara üstünlük verirlər. Bu isə çox səhv bir fikirdir. Yerli mal onlarla müqayisədə ən təmiz mallardır. Lakin Azərbaycan istehsalçıları da bəzən mallarını elə dizayn edirlər ki, guya xaricdən gətirilib. Amma haradasa arxa tərəflərdə "Azərbaycan istehsalı" sözünü yazaraq məsuliyyətdən qaçırlar. Bu hal daha çox spirtli içkilər və şərablar sektorunda yayılıb. Onu da qeyd edim ki, xaricdən gətirilən hər hansı bir məhsul Azərbaycanda bükülə bilər. Onun mənşəyi standartın tələbinə uyğun olaraq mütləq göstərilməlidir. Ancaq bu məhsulun Azərbaycanda büküldüyü də qeyd edilməlidir. Qanun qadağan etmir ki, Azərbaycanda istehsal edilən məhsulun üzərinə xarici ölkənin ştrix kodunu qoyasan. Bu, normal haldır. Çünki ştrix kod malın keyfiyyəti barədə heç bir informasiya vermir. Ştrix kod malların avtomatik satışını həyata keçirmək üçündür".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Gömrük liberallaşdı; bəs qiymətlər niyə ucuzlaşmır?

## "Manatın dəyərdən düşməsi hər zaman qiymətlərin müəyyənləşməsində mühüm rol oynayacaq"

**Gömrük sisteminin liberallaşması və korrupsiya hallarının, inhisarçılığın aradan qaldırılması qismən də olsa reallaşıb. Lakin bu, bazarda məhsulların qiymətində öz təsirini göstərməyib. Məsələn, MDB məkanından tikinti materialları gətirən iş adamları əvvəllər gömrükdə 10-12 min manat ödəməli olurdular. İndi isə sadəcə 18 faizlik ƏDV və 2000-2500 manat arasında rəsmi rüsum ödənilməklə bu materiallar ölkəyə gətirilir. Ancaq əməkdaşlarımızın son günlər tikinti materialları bazarında apardığı müşahidələrdən məlum olur ki, xaricdən gətirilən malların qiymətlərində ucuzlaşma müşahidə olunmur. Bəs görəsən, qiymətləri artırmağa daha həvəsli görünən iş adamları ucuzlaşma üçün əsas yarandıqda niyə bu addımı atmırlar? Bu sahənin də inzibati yolla tənzimlənməsi mümkündürmü? Satıcıların və iş adamlarının bu davranışının kökündə hansı səbəblər dayanır?**




"Yeni Müsavat"a açıqlamasında bu sualları cavablandıran **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, gömrük sistemində liberallaşma, rüsumların azalması bir müddət sonra bazara təsir göstərməlidir: "Bu fikirdə bir həqiqət var. Bir müddət keçməlidir ki, bazar özü malın maya dəyərindən çıxış edərək qiymətləri tənzimləsin. Hazırda Azərbaycan bazarında iqtisadi aktivlik azaldığından bir müddətdən sonra satıcıların özləri də optimal qiymət haqqında düşünməyə məcbur olacaqlar. Çünki tikinti sektorundakı durğunluq digər sahələrdə olduğundan daha çoxdur, dövlət sifarişləri azalıb, dövlətin ayırdığı investisiyalar məhdudlaşıb. Bu il isə ümumiyyətlə, dövlət investisiyaları əhəmiyyətli dərəcədə azalacaq. Tikinti bazarında dövlət investisiyaları çox mühüm rol oynayırdı. Hazırda fərdi tikintilərin də azalması müşahidə olunur.

Təxminən bir aya biz bazarda qiymətlərin tənzimlənməsinin şahidi olacağıq. Ancaq bu o demək deyil ki qiymətlər maya dəyərindən aşağı həddə çatacaq. Problem ondadır ki, qiymətlər təkcə gömrük rüsumlarına görə deyil, həm də dolların manata qarşı məzənnəsinə görə müəyyənləşir. Ötən il ərzində manat iki dəfə devalvasiyaya uğrayıb. İkinci devalvasiyadan sonra da manat təxminən 3 faiz dəyər itirib. Rəsmi məzənnə 1.55-dən 1.61-ə qədər yüksəlib. Bunun da tikinti bazarına təsiri olacaq. Bunu nəzərə alsaq, qiymətlərin bir müddət sonra düşməsini söyləmək mümkündür. Qiymətlər həm alıcılıq qabiliyyətinin azalmasına, həm də gömrük rüsumlarının azalmasına görə düşəcək. Lakin devalvasiyadan öncəki qiymətlərə qayıtması mümkün deyil. Manatın dəyərdən düşməsi hər zaman qiymətlərin müəyyənləşməsində mühüm rol oynayacaq".

**İqtisadçının fikrincə, gömrükdə vəziyyət elə qarışıqdır ki, bəzən iş adamlarına rəsmi gömrük rüsumundansa rüşvət vermək daha çox sərf edir:** "İndi 18 faiz ƏDV-dən başqa iş adamları gömrük rüsumu da ödəyir. Rüsumlar isə çox fərqlidir; bəzi mallarda aşağıdır, bəzilərində isə yüksəkdir. Ona görə də gömrükdə bütün sahələrdə leqallaşma olsa təbii ki, bəzi sahələrdə bu qiymətlərin ucuzlaşmasına səbəb olacaq. Ancaq bəzi materiallarda isə bahalaşmaya səbəb olacaq".

Azərbaycan bazarlarının xarakterik xüsusiyyətlərindən biri də odur ki, bahalaşma üçün kiçik bir səbəb olanda qiymətlər dərhal qaldırılır. Lakin malların ucuzlaşması üçün iqtisadi əsas yarananda biz eyni operativ davranışların şahidi olmuruq.

**Azərbaycan bazarının bu xarakterini dəyərləndirən iqtisadçı ekspert bildirdi ki, satıcıların bu davranışı haqlı olmasa da, anlaşılandır:** "Mən satıcılara haqq qazandırmıram, lakin onların bu davranışını başa düşmək olar. Ölkədəki vəziyyət budur ki, manatın taleyi bəlli deyil. Manatın yenidən dəyərdən düşməsi ehtimalının yüksək olduğu bir şəraitdə iş adamları gəlirlərini sığortalamağa çalışırlar və risk marjını da qiymətin üzərinə qoyurlar. Gələcəkdə baş verəcək devalvasiyadan bu yolla qorunmağa çalışırlar. Mən demirəm ki, bu doğrudur. Ancaq biznesin davranış qaydalarına uyğundur".

**N.Cəfərli onu da qeyd etdi ki, iş adamlarının bazarın tələblərinə cavab verməməsinin ən önəmli səbəbi rəqabətli mühitin olmamasıdır:** "Ona görə bazarda qiymətlərdə çox ciddi pərakəndəlik var. Satıcılar köhnə malları da yeni qiymətlərlə satmağa çalışırlar. Burada qanun pozuntusu və ya hər hansı kriminal yoxdur. İş adamları, sadəcə, gələcəkdə olacaq itkilərinin sığortalanması haqqında düşünürlər. Ciddi rəqabətli mühit olsa, iş adamlarının bu davranış qaydası da dəyişəcək. Rəqabətdə qalib gəlmək istəyən iş adamları qiymət siyasətini daha çevik edəcəklər və bazarın tələblərinə uyğunlaşdıracaqlar".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016



# Maniakal həvəsin 5 dəfə azalması

Samir SARI

**Deyəsən, avtomobil manyaklığı erası sona yetir. Xəbər yayılıb ki, son bir ildə ölkəyə gətirilən avtomobillərin sayı 5 dəfə azalıb. Beş dəfə! Balaca rəqəm deyil. Bu o deməkdir ki, ötən illərdə ölkəyə 100 (1000, 10 000) avtomobil gətirilirdisə, indi 20 ( 200, 2000) avtomobil gətirilir.**

Deməli ölkədə 5 dəfə az avtomobil alınıb-satılır.

Ölkəyə gətirilən avtomobillərin sayının 5 dəfə azalması, bu sahədən dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının 5, bu işə baxan məmurların rüşvətinin 10 dəfə azalması deməkdir.

Rüsum və rüşvət büdcəsini qoyaq bir qırağa, buna ayrı adamlar baxır, biz xalqımızın avtomobil alıcılığı qabiliyyətinin qəfil zərbə almasından danışaq.

Pis çıxmasın, bu, inqilabi situasiyadır. Görün, vəziyyət necə qəlizləşibsə, camaat (7-dən 77-yə maşınsız hər kəs) öz ülvi arzusunu, şəxsi avtomobil sahibi olmaq planını gerçəkləşdirə bilmir və müvəqqəti də olsa, bu arzunu öz qəlbinin kameralarında boğub.

Bura cibində ilk 250 manatı hiss edən kimi gedib 1970-ci ildə buraxılmış və 50 il istismarda olduğu üçün cırıq-cırıq olmuş “Jiquli”ni sürüyərək dəmirçi sexinə aparan, “usta, yavaş-yavaş zapçast alıb verəcəm, bundan mənə maşın yığ” deyən avtomobil həvəskarlarının vətənidir.

Aylıq qazancı 500-ü keçən kimi bankdan 40 min manat kredit götürüb cip növlü avtomobil alan, “bunun kreditini verim, yenə kredit götürüb ev də alacam” deyə yaxınlarına öz planları barədə anons verən maşın azarkeşləri də bu ölkədə yaşayır.

Evi yoxdur, kirayələrdə yaşayır, amma 40 minlik maşın sürür, düşmənlərini çatladır.

Yadımdadır, on il öncə bizim məhəllədə, 6 doqquzmərtəbəli binanın geniş həyətində 6-7 avtomobil dayanırdı. Çoxu da “Niva”, “Vaz-2107" idi. İçində bir ”Opel-Astra" da vardı. Sonra nə oldusa, nə baş verdisə, avtomobillərin sayı sürətlə artmağa başladı. “Mersedes”lər, “Hunday”lar, “Toyota”lar böyür-böyürə sıralandı. Bir dəfə səhər-səhər eyvanda dayanıb ərinməz-ərinməz gözümə görünən avtomobilləri saydım: 77 dənə. Hələ buraya həmin vaxt ölkənin və paytaxtın yollarında hərəkətdə olan, yardımçı binaların arxasında olduğu üçün görmədiyim avtomobilləri də əlavə etmək lazımdır.

Nə demək olardı? Hər evə maşın lazımdır və imkan varsa alınmalıdır. Hiss olunurdu ki, bir çoxunun imkanı var. Bunu ondan bilmək olardı ki, onlar tez-tez maşınlarını dəyişir, hər dəfə yenisini və daha bahalısını alırdılar. Ancaq yuxarıda dediyim kimi, maşın almağa və saxlamağa imkanı olmayan, hətta ailəsi ilə toya gedəndə taksiyə verməyə pulu çatmayan adamlar da ümumi kampaniyaya qoşulmuşdular, avtomobil sahibi olmaq istəyirdilər. Təbii ki, onların buna haqqı vardı, təəssüf ki, imkanları yox idi. Banklar da kredit kisəsinin ağzını açaraq camaatın arzusunu ürəklərində, qazandıqları pulu ciblərində qoymurdu.

Ayda iki-üç dəfə gedib Gürcüstandan avtomobil gətirən və tanış-tunuşlarına satan bir simsar adam and içirdi ki, Rustavi şəhərinin yaxınlığındakı maşın bazarına girirsən, elə bilirsən, Badamdarsan - hər yan azərbaycanlılardır, alırlar, satırlar, çənə-boğaz edirlər.

Hər gün yol keçəndə görürdük ki, iki mərtəbəli banında minik avtomobilləri daşıyan traylerlər karvanı gömrük məntəqələrinə, ordan da avtomobil salonlarına gedir. Adama elə gəlirdi ki, Cənubi Koreyanın, Yaponiyanın, Almaniyanın avtomobil zavodları sırf ölkəmiz üçün işləyir.

Bu mənzərəni görənlərin bəziləri deyirdi: “Vay dədəə! Bu qədər maşın hara yerləşəcək? Vallah, belə getsə şəhərdə tərpənə bilməyəcəyik”.

Amma belə getmədi. Neftin qiyməti düşdü, düşdü, camaatın pul-parası azaldı, azaldı, o yerə çatdı ki, çörək imtahanı qorxusu maşın həvəsini öldürdü.

İndi bu həvəs 5 dəfə azalıb. Artıq maşın almaq üçün kredit götürənlərin sayı da sıfıra yaxınlaşıb. Bununla belə, hələ 5 il ölkəyə bir maşın gətirilməsə belə, salonlarda və camaatın əlində alıb-satmağa maşın var. Bircə “rastamoşka” işinə baxan məmurlara yazıq oldu...

---



# İxtisar olunanlar narazı zümrəyə qoşularsa...

## Daxili və xarici qüvvələr bu “ordu”dan hakimiyyətə, dövlətə qarşı istifadə edə bilərmi?

**Neftin kəskin ucuzlaşması ölkənin gəlirlərini də əhəmiyyətli dərəcədə azaldıb. Bu vəziyyətin ortaya çıxardığı zərərli tendensiyalardan biri də iş yerlərinin bağlanması, işsizlərin sayının artmasıdır. İş yerini itirənlərinin sayının sürətlə artması o deməkdir ki, narazı zümrən sıraları genişlənir. Bəs bu zümrənin artmasından, işsizlər ordusundan daxildəki və xaricdəki qüvvələr istifadə edə bilərləmi?**

Politoloq Qabil Hüseynli bildirdi ki, işsizlərin sayının çoxalması cəmiyyətdə antoqonist ziddiyyətlərin artmasına şərait yaradır. Neftin qiymətinin aşağı düşməsi, qeyri-neft sektorunun zəif olması zəif olan orta təbəqənin sıradan çıxmasına gətirib çıxarır. Orta təbəqənin sıradan çıxması da onların açdıqları iş yerlərinin də bağlanmasına səbəb olur. İşsizlər ordusu isə bütün ölkələr üçün təhlükəli bir faktordur: “Azərbaycanda işsizlərin sayının artmasından daxili siyasi qüvvələrdən çox xarici qüvvələr dövlətə qarşı istifadə etməyə can ata bilər. Daxildə siyasi partiyalar erməni təcavüzünün mövcud olduğu bir şəraitdə daxili vəziyyətin mürəkkəbləşməsinə cəhd etməzlər. Onlar tənqid edərlər, yazarlar, amma bütövlükdə əhalini qeyri-konstruktiv istiqamətə yönəltməyə cəhd etməzlər. Əgər belələri tapılarsa, demək, onlar hansısa xarici dövlətin tapşırıqlarını yerinə yetirir. Qaldı xarici qüvvələrin yaranmış vəziyyətdən istifadə etməsinə, buna cəhdlər ola bilər. Bu yaxınlarda Nardaran hadisələrində hansı dövlətin barmağı olduğunu gördük. Eləcə də başqa dövlətlər də şimal rayonlarında fəallıq göstərmək istəyinə düşə bilərlər. Hüquq-mühafizə orqanlarının işidir ki, həmin qüvvələrin ölkəmizin daxilində pozuculuq aparmasının qarşısını alsın. Yerli hakimiyyət orqanları da əhali ilə daimi izahat işi aparsın, onların ehtiyaclarını öyrənsin, ehtiyacların aradan qaldırılması istiqamətində səylər göstərsin. Yerli hakimiyyət orqanlarından əhalinin əhval-ruhiyyəsi xeyli dərəcədə asılıdır. Əhalini hakimiyyətdən incik salan, qeyri-konstruktiv hərəkətlərə vadar edən əsas məsələlərdən biri də bürokratik süründürməçilik, rüşvət tələb etmə kimi səbəblərdir”.

**Q.Hüseynli işsizlər ordusunun artmasından daxili və xarici qüvvələrin istifadə edə bilməməsi üçün bir çox mühüm addımlar atılmalıdır:** “Bunun üçün sosial tədbirlər görülməlidir. Məsələn, işsizlərə müəyyən müddətə sosial müavinətlərin verilməsi, onların dəqiq uçotunun aparılması, imkan daxilində yeni iş yerlərinin açılması, bir sözlə, insanın "ac qılınca çapar" səviyyəsinə gətirilib çatdırılmaması vacibdir. Azərbaycanda işsizlərin sayı son vaxtlar artmaqdadır, amma bu prosesin zərərlərinin mümkün qədər az olması üçün tədbirlərə başlanıb. Məsələn, struktur islahatları aparılır, sosialyönümlü proqramların işə salınmasına ciddi əhəmiyyət verilir, sosialyönümlü proqramların heç biri ixtisar edilmir. Xüsusilə işsiz olan və maddi durumu çətin ailələrin uçota alınması və onların sosial müavinətlə təmin edilməsi istiqamətində səmərəli işlər aparılmağa çalışılır. Bir sözlə, elə edilir ki, vəziyyət adamların ayaqlanmasına gətirib çıxarmasın. Üstəlik də ölkədə bir sıra layihələrin də işə salınması nəzərdə tutulub. Bu, əsasən qaz layihəsidir. Uzağı bir ildən sonra “Şahdəniz” qaz yatağının işə salınması planlaşdırılır. Qaz yatağı işə salındıqdan sonra ölkəyə valyuta gətirilməsi artacaq. Azərbaycan mühüm yükdaşımalarının mərkəzinə çevrilir. Bu sahədən də ölkənin gəlirləri çoxalacaq. Azərbaycan iqtisadiyyatının neftdən asılılığına son qoyulmalıdır. Qeyri-neft sektorunun inkişafı üçün ciddi şərait yaratmaq lazımdır. Bu proseslərin uğurla aparılması üçün ölkədə rüşvətə və korrupsiyaya qarşı ciddi mübarizə aparılmalıdır. İnsanlar ona dövlət tərəfindən verilən sosial müavinət, yardımlar, lizinq kreditləri üçün artıq pul ödəməməlidir. Kreditlər insanlara ədalətli paylanmalıdır, elə edilməlidir ki, insanlarda iş qurmağa, istehsala həvəs oyansın. Belə olan şəraitdə insanlar nə ölkəni tərk edər, nə də hansısa kənar qüvvələrin təsiri altına düşər".

❑ Etibar SEYİDAĞA

---

# İsgəndər Həmidov müxalifəti birləşməyə çağırdı

## “Biz özümüz bir yerdə olmadan xalqı bir yerə toplaya bilmərik”

**Azərbaycanın tanınmış müxalifət partiyaları və müxalif liderləri 20 Yanvar faciəsinin 26-cı ildönümündə də bir yerdə ola bilmədilər. Yanvarın 20-də Şəhidlər Xiyabanını ziyarətə azı 4-5 ayrı-ayrı dəstələrlə getdilər. Müxalifətdəki pərakəndəlik və bir-birini qəbul etməmək yanvarın 20-də daha açıq şəkildə özünü göstərdi. Demokratik düşərgənin hətta ümummilli hüzn və qəhrəmanlıq günündə də bir araya gələ bilməməsinin səbəbləri barədə Azərbaycan Milliyyətçi Demokrat Partiyasının sədri İsgəndər Həmidov “Yeni Müsavat”a danışdı.**



İsgəndər Həmidov bildirdi ki, 20 Yanvar həm ümummilli hüzn günüdür, həm Azərbaycan xalqının milli cəsarət bayramıdır. Azərbaycanda müxalifət partiyalarının heç olmasa 20 Yanvarda bir araya gəlməməsi, Şəhidlər Xiyabanına gedəndə belə, pərakəndəlik müşahidə olunması üzücüdür. Bu vəziyyət üzücü olmaqla yanaşı, bütün müxalifət qüvvələrinin ziyanınadır: “Belə pərakəndəlik mənəm-mənəmlikdən bir-birini qəbul etməməkdən, bir-birinə qarşı mübarizə aparmaqdan, lider olmaq iddialarından irəli gəlir. Bu vəziyyət gətirib müxalifəti o günə salıb ki, hətta 20 Yanvar kimi gündə də müxalifət bir yerdə ola bilmədi. Biz özümüz bir yerdə olmadan xalqı bir yerə toplaya bilmərik. Bir yerdə olub xalqı bir yerə yığmaq lazımdır. Bundan sonra xalq öz liderlərini ortalığa çıxaracaq. Mən ümid edirəm elə bir vəziyyət, elə bir zərurət ortalığa çıxacaq ki, hətta şəhidlərimizi ziyarətdə pərakəndə olan müxalifət qüvvələri bir araya gələcək, vahid qüvvəyə çevriləcək. Ölkədə proseslərin gedişi məhz buna gətirəcək. Hamı dərk edəcək ki, bizim gücümüz, qələbəmiz birlikdədir. Biz bir yerdə olmağa məhkumuq. Müxalifətin önündə gedənlərin hər biri millətin, dövlətin qarşısında məsuliyyəti dərk eləməlidir”.

**İ.Həmidov vurğuladı ki, müxalifət partiyaları və liderləri arasında soyuq münasibətlər, dağınıqlıq cəmiyyətdə onların hamısına inamsızlıq yarada amildir:** “Cəmiyyətin müəyyən kəsimi vəziyyəti görür və deyir ki, bu müxalifət partiyaları ən mühüm günlərdə belə, birləşə bilmirsə, biz niyə onlarla bir olmalıyıq? Birləşmək cəmiyyətin bu cür düşünən kəsiminin fikirlərində dəyişiklik yaradar. Xalq biz müxalifətlə bir yerdə olmağa məcbur deyil. Biz bir yerdə olmağa məcburuq.

Birləşməkdən ötrü vahid platforma, vahid ideya olmalıdır. Vahid ideya isə xalqı, dövləti düşdüyü indiki təhlükəli vəziyyətdən xilas etmək ideyası ola bilər".

❑ E.SEYİDAĞA

# Qarabağ məsələsi beynəlxalq dartışma predmetinə çevrilib

## AŞ PA-dakı müzakirələr öncəsi konflikt ABŞ-da müzakirəyə çıxarıldı; ekspertlər vəziyyətlə bağlı nə düşünür, münaqişənin "don"u açılacaqmı?..

**Son zamanlar Qarabağ münaqişəsinin həllinə yönəlik cəhdlərin artması müşahidə olunur. Hər halda, ABŞ-ın dövlət katibi Con Kerrinin dondurulmuş münaqişələrin həllinin zəruriliyi ilə bağlı diqqətçəkən mövqe sərgilməsindən sonra Azərbaycan-Ermənistan konfliktinə də diqqət ayrılması müəyyən ümidlər yaradır.**

Maraqlısı budur ki, paralel olaraq həm Rusiyada, həm Avropada, həm də Amerikada Qarabağ məsələsindən daha çox danışılmağa başlanılıb. Düzdür, bu cəhdlərin konkret nəticəsi ortada yoxdur. Lakin faktiki olaraq Qarabağ münaqişəsinin çözülməsi ilə əlaqədar Qərblə Rusiya arasında yarışmanın müşahidə olunması halı da mövcuddur. Düzdür, Rusiyadan vaxtaşırı Azərbaycanın işğal altındakı 7 rayonunun işğaldan azad olunması zərurəti barədə ictimai fikrə mövqelər ötürülür və bu fikirlərin nə qədər səmimi olması sual altındadır. Lakin istənilən halda belə yanaşmalar Qərb dairələrində də dəyərləndirilir. Hətta Qərb analitikləri Rusiyanın hərbi əməliyyatları qızışdırmaq, yaxud bəzi rayonların azad edilməsinə nail olmaqla öz qoşunlarını bu bölgəyə yerləşdirmək planı üzərində işləməsindən bəhs edir.

Belə bir ərəfədə - yanvarın 20-də Vaşinqtonda "Dağlıq Qarabağ münaqişəsi: Cənubi Qafqazda sülh, müharibə və ya çıxılmaz vəziyyətin perspektivləri" mövzusunda konfrans keçirilib. **"Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair bu gün Vaşinqtonda əla müzakirələr keçirdik"** - ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik twitter hesabında yazıb. Həmsədr konfransın hansı qurum tərəfindən təşkil edildiyi, müzakirələrdə kimlərin iştirak etdiyi barədə məlumat verməyib.

Yanvarın 24-25-də isə ATƏT PA sədri İlkka Kanerva Azərbaycanda səfərdə olacaq. Görüşlərdə ATƏT PA ilə münasibətlər, ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rolu və digər məsələlər müzakirə ediləcək. Qeyd edək ki, bir neçə il əvvəl Finlandiyanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri kimi Bakıya səfər edən İ.Kanerva "Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdarıq"-deyə, bildirmişdi.

Yaxın günlərdə AŞ PA-da da Azərbaycanın işğal olunmuş əraziləri və ermənilərin nəzarətində olan Sərsəng su anbarı ilə bağlı qətnamə layihələri müzakirəyə çıxarılacaq ki, bunlar da önəmli məsələlərdir. Eyni zamanda Almaniyanın ATƏT-də sədrliyə başlaması da Azərbaycanın maraqlarına cavab verir.



Fazil Mustafa



Elxan Mehdiyev



Akif Nağı

**AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Fazil Mustafa "Yeni Müsavat"a dedi ki, AŞ PA-da hər iki qətnamə layihəsinin qəbulu Azərbaycanın bir dövlət uğuru kimi qiymətləndirilməlidir:** "Bunun üçün də həmin sessiyada hamımızı gərgin iş gözləyir. Yaxşı olardı ki, bu ərəfədə həmin qurum tərəfindən Azərbaycana irad olaraq göstərilən məhbusların azad olunması baş verərdi və bu qətnamələrin də qəbulunda əlimiz daha güclü olardı. Bununla belə, məruzələrin müsbət qarşılanması və həmin qətnamələrin qəbulu hələ Qarabağ məsələsinin həllində hansısa ümid yaratmır. Dünyanın bu qarışıq vaxtında nə ABŞ-ın, nə də Rusiyanın Qarabağ problemi ilə bağlı yeni hərəkətlənmə göstərəcəyi ehtimalı olduqca azdır. İndiki mərhələdə əleyhimizə hansısa qərarın olmasına yol verməmək üçün xüsusilə çalışmağımız lazımdır. Burada əsas etibarilə ABŞ-la münasibətlərimizə daha ciddi yanaşılmasını nəzərdə tuturam. Bizim tərəfdən bəhanələri kəsəcək bütün addımlar atılmalıdır ki, sanksiyalara rəvac verilməsin. Lakin bütün hallarda Qarabağ məsələsində bir yenilik və ya faydalı irəliləyiş gözləmirəm".

**Konfliktoloq Elxan Mehdiyev qəzetimizə bildirdi ki, ATƏT PA sədrinin Azərbaycanı dəstəkləyən bəyanatları heç nəyi dəyişmir:** "Eynilə Almaniyanın sədrliyi də bu qəbildəndir. Yəqin ki, Almaniya bizə Qazaxıstandan yaxın deyil. Qazaxıstan sədr olanda bir irəliləyiş hiss etdinizmi? Yaxud Azərbaycan BMT Təhlükəsizlik Şurasının iki il üzvü oldu və 15 kişidən biri oldu, bu, özü nəyisə dəyişdirdimi? Bir dəfə BMT Təhlükəsizlik Şurasının erməni işğalı ilə bağlı 4 qətnaməsi var deyildimi, bu məsələ gündəmə gətirildimi? Ondan yaxşı fürsət bir də tarixdə Azərbaycanın əlinə düşəcəkmi, demək çətindir. İkincisi və ən əsası odur ki, erməni-Azərbaycan məsələsi ilə ATƏT-in Minsk Qrupu həmsədrləri məşğul olur və onlar bu məsələni tam monopoliyaya alıblar. Odur ki, istənilən başqa təşkilatın, o cümlədən ATƏT sədrinin də bu işə qarışmasını qısqanclıqla qarşılayıb qulaqardına vururlar. Onların öz "prosesi" var və işğalçıya qarşı hər hansı başqa bir beynəlxalq təşkilatın bir söz deməsi onların "prosesini" pozur. Onlar bu məsələni bizlərdə deyildiyi kimi, "dədələrinin malına" çeviriblər".

**Bu baxımdan E.Mehdiyev Strasburq müzakirələrindən də ciddi nəticə gözləmir:** "AŞ PA-da qəbul olunması gözlənilən o iki sənədin beynəlxalq rəyə sadəcə yan müsbət təsiri ola bilər. Yeri gəlmişkən, indi həmsədrlər çalışırlar ki, o iki sənədin də dilini nə qədər mümkünsə, neytrallaşdırsınlar və Azərbaycanın oradakı nümayəndələri gərək bu işi diqqətdə saxlasın. Bu sənədlərin qəbulunun isə Minsk Qrupunun həmsədrlərinə heç bir təsiri olmayacaq və onlar da buna öncədən də açıq etiraz bildiriblər. Bu baxımdan bəlkə də onun Azərbaycana zərəri var. Çünki bu qərarlar həmsədrlərlə erməni tərəfini daha vahid platformada birləşdirir. Azərbaycan da bu işin həllini ATƏT-ə həvalə edib. Mənim gördüyüm reallıq budur".

**QAT sədri Akif Nağı isə hesab edir ki, hər iki qurumun rəhbərliyinə obyektiv mövqedən çıxış edən olkələrin, şəxslərin gəlməsi, əlbəttə, müsbət hadisədir:** "Bəzən bu məqamlar hansısa qərarın qəbul olunmasına təsir göstərir. Avropa Şurası Parlament Assambleyasında da iki mühüm qətnamənin müzakirəyə çıxarılması ümidverici hadisədir. Bu, bizim nümayəndə heyətimizin uğuru kimi də dəyərləndirilə bilər. Ermənilər də bu proseslərdən, xüsusilə də AS PA - da gedən proseslərdən çox narahatdırlar. Bu yaxınlarda oxudum ki, erməni deputatlar AŞ PA-nı "Azərbaycan Milli Məclisinin bir şöbəsi" adlandırıblar. Bu, onların qəzəbləndiklərinin göstəricisidir. Biz beynəlxalq müstəvidə müəyyən uğurların əldə olunmasına çalışmalıyıq. Amma nə qədər ki, Ermənistan təcavüzkar kimi tanınmayıb, ona qarşı sanksiyalar tətbiq olunmayıb, ciddi uğurdan danışmağa dəyməz. Özümüzü kiçik uğurlarla aldatmayaq".

**A.Nağının fikrincə, Rusiya ilə Amerika arasında Qarabağ məsələsinə münasibətdə rəqabət aydın görünür:** "Amma bu rəqabətin məqsədi nədən ibarətdir? Bu rəqabət, hər halda, münaqişənin ədalətli həlli üçün aparılmır. Hər iki tərəf daha çox öz maraqlarını müdafiə etməyə çalışır. Rusiya təşəbbüsü özündə saxlamaqla münaqişənin hələlik donmuş vəziyyətdə qalmasına çalışır. ABŞ Rusiyanın azacıq da olsa, təsirini zəiflətmək istəyir. Başqa niyyətlər hələlik görünmür. ABŞ-ın mövqeyində azacıq da olsa, müsbət meyllər hiss olunur. Gələn il üçün Dağlıq Qarabağdakı qondarma rejimə birbaşa maliyyənin ayrılmaması, prezident İlham Əliyevin ABŞ-a dəvət olunması bu prosesin göstəricisi kimi dəyərləndirilə bilər".

# Azərbaycan ordusu dünyanın ən güclüləri sırasında

## ABŞ ordusunun başçılıq etdiyi siyahıda ordumuz 50-ci güclüdür; **Üzeyir Cəfərov:** "Bu, yaxşı nəticədir"

**ABŞ-ın "Global Firepower" araşdırma mərkəzi dünyanın ən güclü ordularının siyahısını tərtib edib. Siyahıda Azərbaycan ordusu da yer alır. AzərTAc "Global Firepower"in saytına istinadla xəbər verir ki, 106 ölkənin yer aldığı reytinq siyahısında Azərbaycan ordusu 50-ci yerdədir.**

Siyahı hazırlanarkən orduların quruda, havada və dənizdə adi silahlardan istifadə imkanları, həmçinin ölkənin malik olduğu iqtisadi resurslar və coğrafi vəziyyət əsas götürülüb. Ümumilikdə 50 amil əsasında tərtib olunan siyahıya ABŞ ordusu başçılıq edir. İkinci yerdə Rusiya, üçüncü yerdə Çin ordusudur. Azərbaycan Rumıniya, Belarus, Gürcüstan, Qazaxıstan, Portuqaliya, Macarıstan, Kolumbiya, Yunanıstan kimi ölkələri geridə qoyub. Ermənistanın adı isə ümumiyyətlə, siyahıya düşməyib.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında Azərbaycan ordusunun göstəricilərini yüksək dəyərləndirdi:** "Hər başa çatan ilin sonunda dünyanın müxtəlif araşdırma ilə məşğul olan iri-li-xırdalı qurumları bir araşdırma aparıb öz mülahizələrini və qeydlərini hesabat şəklində yayırlar. Son illər dünya ordularının səviyyəsi, hazırlığı və digər göstəriciləri ilə bağlı da bir neçə təşkilat öz hesablatlarını ictimailəşdirib. Haqqında söhbət gedən ABŞ-ın "Global Firepower" araşdırma mərkəzi də son illər dünyanın ən güclü orduları ilə bağlı bir layihə həyata keçirib və bizim diqqətimizi cəlb edən məqamlardan biri də o siyahıda Azərbaycan ordusunun da yer alması faktıdır. Əlbəttə ki, müstəqillik tarixi cəmi iki on illikdən bir az çox olan ölkə üçün bu, yaxşı nəticədir. Onu da qeyd edim ki, bu parametrlərə əsasən, Silahlı Qüvvələrin quruda, havada və dənizdə adi silahlardan istifadə imkanları, həmçinin ölkənin malik olduğu iqtisadi resurslar və coğrafi vəziyyət əsas götürülərək tərtib olunub. Sadalanan amillər arasında bütün uyğun olan məqamlar ölkəmizin güc strukturlarında daha əlverişli olduğuna görə bizim ölkəmiz də bu siyahıda kifayət qədər yuxarı yerdə məskunlaşıb".

**Ü.Cəfərov əlavə etdi ki, hər bir ölkənin ordusunun nəyə qadir olması o silahlı birləşmələrin döyüş təcrübəsindən çox asılıdır:** "Fikir verirsinizsə, tərtib olunan siyahıya ABŞ ordusu başçılıq edir. Ona görə ki, həm təchizat baxımından, həm də müxtəlif nöqtələrdə istər fərdi ölkə şəklində, istərsə də NATO Silahlı Qüvvələri ilə birlikdə praktiki döyüş əməliyyatlarında iştirak edir. İkinci yerdə olan Rusiya ordusu da son illər bütün qoşun növlərində həm silah-sursatını modernləşdirməyə böyük güc sərf edir, həm də adi silahların istehsalçısına və ixracatçısına çevrilməkdədir. Özü də şimal qonşumuz iqtisadi çətinliklərini məhz silah-sursat satmaqla aradan qaldırmağa çalışır. Çin ordusu da həm sayına, həm də ayrılan vəsaitlərə görə ilk üçlükdədir".

**Polkovnik-leytenant işğalçı Ermənistanın kənarda qalmasına da toxundu:** "Bədnam qonularımızın adının, ümumiyyətlə, siyahıya düşməməsi onunla bağlıdır ki, bu bədbəxtlər nə özləri silah alır, nə də istehsal imkanları var. Ermənistan bütövlükdə Rusiyadan hər sahədə asılı vəziyyətdə olan formal dövlətdir. Üstəlik, son vaxtlar biz davamlı məlumatlar alırıq ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olan Rusiya növbəti silah-sursat, təyyarə, vertolyot partiyasını işğalçıya göndərməyə hazırlaşır. Onlar bunu guya 102-ci bazaya göndərdiklərini bəyan etsələr də, biz gözəl bilirik ki, ora göndərilən bütün silah-sursat sonradan ya hədiyyə kimi, ya da güzəştli şərtlərlə Ermənistana peşkəş edilir".



Bu arada Ermənistan ordusunda vəziyyətlə bağlı ilginc məlumatlar yayılıb. Düşmən ölkənin Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi 2015-ci il ərzində silahlı qüvvələrin ümumilikdə guya 57 nəfər itki vermələri ilə bağlı məlumat yaysa da, Azərbaycan tərəfi bu açıqlamanı "qeyri-ciddi və saxta" adlandırıb. Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı rəsmi məlumata görə, bu rəqəmlər erməni tərəfinin il ərzində verdiyi rəsmi xəbərlərlə tamamilə üst-üstə düşmür. Belə ki, yalnız erməni mətbuatından götürülən məlumatlara əsasən, düşmən tərəfi 2015-ci ildə ölü olaraq 83 nəfər, yaralı olaraq isə 100 nəfərdən artıq itki verib. Nazirlik qeyd edib ki, Dağlıq Qarabağdan orduya çağırılanlar, məcburi surətdə silahlandırılıb səngərlərə yerləşdirilən mülki əhali və qaynar nöqtələrdən gətirilən muzdlular arasındakı itkilər də statistik məlumatlar hazırlanarkən nəzərə alınmalıdır.

Erməni ictimaiyyətindən gizlədilən, müxtəlif mənbələrdən, o cümlədən elə düşmənin daxilindən əldə edilən məlumatlardakı rəqəmləri də hesablasaq, erməni xalqı üçün dəhşətli bir rəqəm alınır. Hətta təqribi hesablamalara əsasən, düşmən tərəfinin 2015-ci ildə verdiyi itki 276 nəfərdən çoxdur. Məlumatda deyilir ki, 2016-cı ilə də düşmən tərəfi itkilərlə başlayıb, ancaq itkilər gizlədilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! İnsan həyatının ən önəmli məsələlərindən biri - ümiddir. Bu günlərdə dəyərli İslam üləmasının birinin dilindən bu ifadə keçdi. İnsan həyatında üç mühüm tərkib, üç mühüm məsələ birlikdə olmalıdır. Fərdi həyatında, toplumlar həyatında bunlar özünü göstərərsə, inkişaf olar. Bunlardan biri - ümid, biri - mükəlləfiyyət hissi, biri isə məsuliyyətdir.**

# Allahdan qeyrisinə ümid bəsləyənin ümidi puça çıxar

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## İnsanın və toplumun inkişafı üçün zəruri olan amillər

İstənilən insanda, istənilən toplumda bu 3 amil olmasa, o insanın, o toplumun inkişafı, təkamülü, irəli getməsi mümkün deyil. Ümid - fövqəladə dərəcədə mühüm məsələdir. Ümid olmasa, insanın mövcudiyyət gücü çox zəifləyər. İnsanın hərəkət, davranış gücü, Allaha bəndəliyə tərəf şövqü çox ciddi şəkildə axsayar. İnsanın ümidi olmalıdır. Bilməlidir ki, yaşadığı bu həyat - müvəqqətidir və irəlidə bir işıqlı aqibət var. Təbii ki, söhbət bir möminədn, iman əhlindən, mütədəyyin insandan gedir. Bu dünyanın yekunu da Zəmanə Sahibinin (ə.f) gəlişi ilə nuraniyyətə gəlib çatacaq. Fərdi həyatı yaşayanda bilməlidir ki, buradan sonra bir həyat gəlir, əbədiyyət gəlir. Əgər Allaha bəndəlik etsə, onu gözəl, nurani bir aqibət gözləyir. Yəni həm bu dünyanın özünün yekunu və aqibəti baxımından insanın ümidli olması, həm də ümumiyyətlə, özünün mövcudiyyəti və varlığı baxımından buradan sonrakı əbədi həyatı düşünməsi mühümdür. Allahın rəhmətinə, inayətinə ümidli olmaq lazımdır. Ümid möminə, mütədəyyin insana yaraşır. Ümidli olmaq - Allahı tanımağın göstəricilərindəndir. Ümidli olmaq, insanın Qiyamətə, məada imanının, inancının olmasının göstəricisidir. Ümidsizlik - əslində tənəzzülə doğru getmənin başlanğıcıdır. Ümid olan yerdə hərəkət, fəallıq, addım atmaq gəlir.

## Mükəlləfiyyətin dərki insanın fitrətindən qaynaqlanır

İkinci mühüm məsələ isə mükəlləfiyyətdir. İnsan mükəlləfiyyətini, təklifini hiss etməlidir. Üzərinə düşən vəzifəsini hiss etməlidir. İnsanlar var ki, yaşayırlar, ancaq instinktlərinin təmini ilə məşğuldurlar. Təəssüflər olsun ki, fitrətlərindən gələn, ruhiyyələrindən gələn, təbii olan, insanın mahiyyətində, bünövrəsində olan vəzifə hiss etmək, mükəlləfiyyətini duymaq hissini çoxları özündə öldürmüş, dondurmuş olur. Bu, insanın qəflətdə olmasından xəbər verir. O hissdir ki, insanı əslində başqa varlıqlardan, iradəsiz varlıqlardan ayırır. Mükəlləfiyyət, təklif hissi insanı digər canlılardan fərqləndirir. O insanların ki, mükəlləfiyyətini duymaq, təklifini anlamaq hissi var, o toplumlar ki, mükəlləfiyyətlərini dərk edir - onlarda nuraniyyət olar. O insanların, o toplumların həyatında nuraniyyət olar. Əgər mükəlləfiyyət, Allaha bəndəlik mükəlləfiyyətinin qavranılması olmasa, insanın həyatı çox qaranlıq, tünd rənglərdə olar, həyatı mənasızlaşar, məzmunsuzlaşar.

Üçüncü mühüm hiss isə məsuliyyət hissidir. Məsuliyyət - çox önəmli bir məsələdir. O insanlar, o toplumlar ki, məsuliyyətlərini dərk edirlər, onların həyatında bir işıq, nuraniyyət olar. Əgər bunları hiss etməsələr, o həyatın bərəkəti olmaz.

## Allahdan qeyrisinə ümid bəsləyənin ümidi puça çıxar

Deməli, ən köklü, bünövrəli məsələ - ümiddir. Ümid olmasa, insanın həyatında hansısa inkişaf ola bilməz. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Bütün ümidlərinizi pak olan Allaha bağlayın və Ondan qeyrisinə ümid etməyin. Çünki, Allahdan qeyrisinə ümid bəsləyən elə birisi olmadı ki, ümidi puça çıxmasın".** Həzrət Əli (ə) tövsiyə edir ki, bütün ümidlərimizi Allaha bağlayaq və Ondan qeyrisinə ümid etməyək. Bunun səbəbini də Həzrət (ə) bizlərə bildirir. Bəyan edir ki, Allahdan başqasına ümidini bağlayan elə bir kəs olmayıb ki, onun ümidi puça çıxmasın. Bu, bir qanundur. Ümid bəslənməli ünvan - Uca Allahdır. İnsan Allahdan qeyrisinə ümid bəsləsə, ümidi puça çıxar. Sadə görsənən, amma insan həyatına məzmun verən, insanın mövcudiyyətini hər mənada nuraniyyətli edən məsələ - Allaha ümiddir. Allaha ümidli olmalıyıq. Bunu da bilməliyik ki, kim Allahdan qeyrisinə ümidli oldu, ümidləri puça çıxacaq. Bu dünyanın qaydası budur. İnsanın Allaha ümidli olması, əslində Allaha bəndə olması deməkdir. Allaha bağlı olmalı, gözləntimiz Allahdan olmalıdır. Allahın rəhmətinə ümid bəsləməliyik. Allaha ümidli olmaq üçün insanın imanı diri olmalıdır. Allahın rəhmətinə ümidli olmaq, əslində həm də insanın imanının diri olması deməkdir.

## Ümidsizlik - ən böyük bəladır

Həzrət Əli (ə) ümidlə bağlı bizləri xəbərdar edir. İmam (ə) buyurur: **"Ən böyük bəla - ümidsizlikdir".** Toplum bu gün mütalə üçün çox faydalı vəziyyətdədir. Hər gün maddi yaşayışın gediş-gəlişini izləyir. Axşam necədir, səhər necədir, günorta necədir?! Uşaqdan tutmuş böyüyə qədər hər kəs maddi vəziyyəti izləyir. Günün bütün saatlarında vəziyyətin necə olduğunu izləyir. Bunlar insan həyatı üçün mühüm, zəruri və lazımlı məsələlərdir. Amma bu vəziyyətdən ibrət götürmək lazımdır. Biz aqibətlə bağlı mövcudiyyətimizin, mənəvi mövzudiyyətimizin inkişafını və onu tənəzzülə aparan amilləri bu qədər araşdırırıqmı?! Biz çox zaman bu məsələlərdən qəflət edirik. İbrət götürülməli məsələdir. İnsanın zəhmət çəkib ruzi qazanması, qazandığı ruzisinin dəyərinin itməməsini düşünməsi çox zəruridir. Bunun üçün vəziyyətdən xəbərdar olur - bu, təbii məsələdir. Amma biz bu sahədə göstərdiyimiz fəallığı, diqqəti, təvəccönü öz mənəviyyatımızla bağlı göstərə bilirikmi? Bu məsələlərdə heç bir kəs, heç bir məsələ insanın fikrini yayındıra bilməz. Belə məsələlərdən fikrini yayındıran insana məsuliyyətsiz insan kimi baxarlar. Amma biz həmin məsələlərə mənəviyyatımızla bağlı riayət edirikmi? Düşünmək üçün ibrətlik mövzudur.

Sadaladığımız məsələlər nəhayətdə müvəqqəti dünya üçündür. Bu dünya - körpüdür, keçiddir, axirət üçün əkin yeridir. Amma, biz əbədiyyətlə, aqibətlə bağlı əlimizdə olan sərmayənin vəziyyətinə bu qədər diqqət edirikmi? Əbədi dünyada işlək olan bir sərmayə var - o da təqvadır. Aqibətimiz üçün dərdə dəyəcək yeganə sərmayə - təqvadır. Əbədi həyatda işlək ola bilən və insanın mövcudiyyətinə müsbət təsir qoya bilən yeganə məsələ - təqvadır. Biz həmin sərmayənin vəziyyətinə xüsusi diqqət yetirməliyik. İnsanın maddi həyatı, ruzi ardınca getməsi - vacibatdır, ibadətdir. Amma insan gərək qəflətdə olmasın və dünya üçün etdiklərini, mənəvi sərmayəsi üçün də artıqlaması ilə etsin. Əgər bu cür düşünə bilsə, xoş olsun halına. Səhər duranda öz halına nəzər salsın, günorta halını təftiş etsin, axşam vəziyyətinin hesabatını versin. Həftənin əvvəli və sonunda öz vəziyyətini müqayisə etsin. Bu dünyada olan bütün məsələlər nəhayətdə ibrət üçündür.

Ən böyük bəla - ümidsizlikdir. Niyə böyük bəladır? Ümidsiz insan imanını söndürmüş olur. Ümidsiz insan təqvasını aktiv haldan sönmüş hala gətirib. Ümid - bir möminin, bir mütədəyyin insanın zəruri cəhətidir. Ümidsizlik - ən böyük müsibətdir. İnsan ki, ümidsiz oldu, uçuruma doğru addımlamağa başlayar. Ümidsizlik - aqibətə inamsızlığın, Allahın rəhmətinə inamsızlığın bir bəyanıdır. Ümidsizlik insanı məhvə aparır.

## Öncə əməl etməli, daha sonra Allahın rəhmətinə ümid bəsləməli

Amma bizlər bunu da bilməliyik ki, heç bir əməl etmədən, çalışmadan ümid bəsləməyin də insana bir faydası olmaz. Həzrət Əli (ə) buyurur: **"Əməlsiz axirətinə ümid bağlayanlar kimi olma. Sağlam olanda xudpəsənd olar, çətinliyə düşəndə ümidini itirər. Ehtiyacsız olsa, məst və aldanmış olar. Ehtiyac olduqda, ümidsizliyə və süstlüyə qapanar".** Vay olsun o insanın halına ki, bu vəziyyətdə, belə durumdadır. Əgər bu halda olsaq, məhv olarıq. Gərək ilk öncə əməl edək. Əgər əməl etsək, axirətimizə görə ümidli olacağıq. Əgər etməsək, bu ümidin bizə faydası dəyməz. Əksinə, sağlam olanda özümüzdən razı olarıq. Belə insanın narahatlıqları olmaz. Çətinliyə düşəndə ümidini itirər. Ehtiyacsız olduğu halda, eyforiya durumuna düşər. Elə bilər ki, kef içərisində yaşayır. Bir qədər ehtiyacı yaranan kimi isə ümidsiz duruma gələr. Ona görə də insan ümidini diri saxlamaq üçün gərək ilk öncə təqvalı həyat yaşamış olsun. Mənəvi sərmayəni diri saxlamaq lazımdır.

Əməl deyildikdə, hər şeydən öncə insanın günahlardan çəkinməsi nəzərdə tutulur. İnsan günahlardan çəkinmədən, Allahın rəhmətinə necə ümidli ola bilər?! İnsan səy göstərməlidir ki, günahlardan uzaqlaşsın. Əgər insan düşüncəli olsa, davranışlarına, hərəkətlərinə diqqət yetirsə, bu qənaətə gələr ki, günahla Allaha ümidli olmaq bir yerə sığmaz. İnsan çalışmalıdır ki, onu günaha yaxınlaşdıran, günaha tərəf gətirən müqəddimələrin olduğu məsələlərdə ayıq olsun. Çünki yekun mərhələdə, günah və o qarşı-qarşıya gələndə, ondan uzaqlaşmaq çox çətin olur. Misal üçün, elə şərait var ki, insan orada daha rahat qeybət edir, daha rahat yalan danışır, daha rahat böhtan atır, pis sözləri dilinə gətirir, sui-zənn edir, mənfi işlərə tərəf meyillənə bilir. Bu şəraitlərin özündən ilk növbədə uzaqlaşmaq lazımdır. Boş-boş, səmərəsiz ünsiyyətlər, ləhvu-ləb, Allah xatırlanmayan görüşlər, məclislər, ünsiyyətlərin hamısı dolayısı ilə insanı günahın müqəddimələrinə tərəf aparıb çıxardır. Orada ki, insanın həyatının, mövcudiyyətinin hədəfi unudulur, orada artıq fürsət yaranır ki, rahatlıqla günaha tərəf yönəlsin. Həzrət İmam Baqir (ə) buyurur: **"İbadətlərin çətini - günahlardan çəkinməkdir".** İnsan fərqində olmalıdır ki, onu günaha tərəf yaxınlaşdıran müstəvilərdən uzaq dursun. Biz ibadət, əməl dedikdə yalnız namazı, orucu anlayırıq. Əslində ən böyük və ən çətin ibadət - günahlardan uzaq durmaqdır. Həqiqi mənada bəndəliyin təzahürü - insanın Allaha xatir günahlardan çəkinməsidir. Belə olan halda, artıq insan Allahın rəhmətinə ümid bəsləyə bilər.

## Ümid, mükəlləfiyyət və məsuliyyət - insanı hərəkətə gətirən əsas amillərdir

Ümid, mükəlləfiyyət və məsuliyyət - həyatın ana xətti olmalıdır. Uşaq məktəbdə oxuyur, tələbə universitetdə oxuyur. Bu ana xətti tətbiq etməlidir. Ümidi olmalıdır ki, bacarar, Allah nəzər salar, nailiyyətlər əldə edər. Bir şagird, tələbə kimi öz mükəlləfiyyətini dərk etməli və onu həyata keçirməyə can atmalıdır. Məsuliyyətini hiss etməlidir ki, mükəlləfiyyətini, üzərinə düşən vəzifələri həyata keçirsin. Bu, hər bir kəsə aiddir. Həyatın bütün sahələrində bu ana xətt tətbiq edilməlidir. Ümiddir ki, bir insanı səhər-səhər evdən çıxardır və ruzi dalınca apardır. O, mükəlləfiyyətdir ki, onu durquzur və hərəkətə keçirdir. O, məsuliyyətdir ki, ruzi qazanmalı olduğunu dərk edir və fərqinə varır. İnsan bu məsələyə bünövrəli baxmalıdır.

Bizim ən böyük problemlərimiz ondadır ki, biz guya yeni-yeni axtarışlardayıq, amma həqiqətlər çox yaxında, proseslərin daxilindədir. Bu məsələlər insanın fitrətində yer tapıb. Ümidli olmaq, mükəlləfiyyət duyğusu, məsuliyyəti dərk etmək insanın fitrətindən gələn məsələlərdir. Təbii ki, insan əgər qəflətdə olsa, bunun təsiri çox aşağı olar.

Günümüzlə bağlı hansı məsələyə toxunsaq, bu ana xətti görərik. İqtisadi çətinlik məsələlərinə toxunsaq, görərik ki, mövzu - deyiimiz məsələlərdədir. Nəhayətdə bir möminin həyatı bu cürdür ki, bura bir imtahan, sınaq yeridir. Bu dünya - mükəlləfiyyət və məsuliyyət yeridir. Amma Allahın rəhmətinə ümidli olmaq lazımdır. İnsan ümidli olmalıdır ki, məndən asılı olanı edəcəyəm, qalanında da Allaha təvəkkül edəcəyəm və Ona sığınacağam. Əgər bunlar olmasa, depressiyalar artar, intiharlar artar, cürbəcür cinayətlər, fəsadlar artar. Baş verənlərə yalnız emosional yanaşmaq fayda verməz. Əqli yanaşmamız olmalıdır. Emosiyalarla gələn bir şeylər elə emosiyalarla da gedər. Dünyada baş verənlərə də dərklə, düşüncə ilə baxmaq lazımdır.

**Allahım, bizlərə Sənə ümid bəsləməyi, mükəlləfiyyətimizi dərk etməyi və məsuliyyətimizi duymağı nəsib et!**

**Allahım, bizlərə Sənə ümiddən öncə əməl etməyi nəsib et!**

**Allahım, aqibətimiz üçün əsas sərmayəni - təqvanı toplamağı bizə nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 15 (6336) 22 yanvar 2016

# ABŞ-da benzin 16 qəpik oldu, bəs Azərbaycanda niyə ucuzlaşmır?

## Vüqar Bayramov: "İndiki halda yerli istehsal olan benzinin qiymətinin 30 faiz ucuzlaşması mümkündür"

**ABŞ-da benzinin qiyməti 16 qəpikdən də aşağı düşüb. Miçiqan ştatının şəhərlərindən birində benzinin 1 litrinin qiyməti 10 sentdən (0,16 AZN) aşağı düşüb. Ekspertlər isə benzinin bu qədər ucuzlaşmasının təkcə neftin qiymətinin aşağı düşməsi ilə əlaqəli olmadığını bildiriblər. Məlumata görə, Hafton Taun şəhərində benzin qallonunun (təxminən 4 litr) qiyməti 47 sentə (0,75 AZN) qədər ucuzlaşıb. Bu isə son 10 il ərzində rekord ucuzlaşma hesab olunur.**



ABŞ-da benzinin qiymətlərinin monitorinqini edən ekspert Patrik De Haan bildirib ki, Miçiqanda özünü göstərən qiymət ucuzlaşması 3 yanacaqdoldurma məntəqəsi arasındakı rəqabətlə bağlıdır. Qeyd edək ki, dünya bazarında neftin ucuzlaşmasından sonra benzinin ucuzlaşması Azərbaycan bazarı üçün də aktualdır. Bundan əlavə, iqtisadiyyatın bütün sahələrində qiymətlərin sürətlə bahalaşdığı dövrdə benzinin ucuzlaşması bu proses üçün tənzimləyici bir amil də ola bilər.

Xatırladaq ki, Tarif Şurasının ötən il verdiyi qərara əsasən, yerli istehsal olan Aİ 92 və Aİ 80 markalı benzinin litri 0.70 AZN, dizel yanacağının litri 0.60 AZN, xaricdən idxal olunan Premium markalı Aİ 95 markalı benzinin litri isə 0.95 AZN təşkil edir.

Ekspertlər isə yerli istehsal olan benzinin qiymətinin 70 qəpikdən 50 qəpiyə endirilməsini təklif edir.

**İqtisadçı ekspert Vüqar Bayramov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, benzinin ucuzlaşması bir çox sahələrdə xərclərin azalmasına, gəlirlərin artmasına səbəb olacaq: "Azərbaycanda benzinin qiymətinin ucuzlaşması ilə bağlı ümumi tarazlıq modelindən istifadə edilir. Biz ümumi tarazlıq modelinə əsasən benzinin qiymətinin neçə faiz ucuzlaşmasının iqtisadiyyata nə qədər müsbət təsirlərinin olmasını müəyyənləşdirməyə çalışırıq. Bizim modelimiz göstərir ki, indiki halda yerli istehsal olan benzinin qiymətinin 30 faiz ucuzlaşması mümkündür. Benzinin qiymətinin 70 qəpikdən 50 qəpiyə endirilməsi büdcə gəlirlərinə ciddi mənfi təsir göstərməyəcək. Çünki benzinin ucuzlaşması imkan verəcək ki, digər sahələrdən qazanılan dəyər vergisi çox olsun".

**Vüqar Bayramovun sözlərinə görə, yanacaq xərcləri azaldığı üçün digər sektorların fəaliyyətinin genişlənməsinə imkan verəcək:** "Bu, eyni zamanda imkan verəcək ki, yeni yaradılmış dəyər hesabına alternativ olaraq başqa sektorlardan vergi ödənişlərinin həcmini artırmaq mümkün olsun. Bu, vətəndaşların sosial vəziyyəti baxımından vacibdir. Ölkədə 1 milyon 200 mindən artıq avtomobil istifadəçisi var. Deməli, onların xərcləri azalacaq. Nəqliyyat sektorunda xərclər azalacaq. Xüsusən də devalvasiyadan sonra ictimai nəqliyyatda xərclərin artımı baş verdi. Çünki avtomobillərin ehtiyat hissələri xaricdən idxal olunur və onların qiymətində artımlar var. Benzinin ucuzlaşması imkan verəcək ki, xərclər azalsın, prosesi tənzimləmək mümkün olsun".

**İqtisadçının sözlərinə görə, benzinin ucuzlaşması beynəlxalq yükdaşımaların xərcinin də azalmasına imkan verəcək:** "Aqrar sektora birmənalı şəkildə müsbət təsir göstərəcək. Çünki aqrar sektorda yanacaqdan çox istifadə edilir. Yanacağın qiyməti 30 faiz ucuzlaşsa, deməli, aqrar sektorda ümumi xərclərin təxminən 17 faiz azalmasına gətirib çıxaracaq. O baxımdan benzinin ucuzlaşması həm fermerlər üçün yeni imkanlar yaradacaq, xərcləri azaldacaq, həm də istehsal olunan məhsulların qiyməti ucuzlaşacaq. Məhsullar ucuzlaşdığı üçün ixrac imkanları artacaq. Bu baxımdan qiymət azalmalarına gedilməsinə ehtiyac var. Bu, həmçinin digər xidmət sahələrində də ucuzlaşmaya səbəb olacaq".

**Vüqar Bayramov onu da qeyd etdi ki, əgər Tarif Şurası benzin istehsalı və satışına qoyulan vergiləri azaltsa, benzinin ucuzlaşması mümkündür:** "Biz yanacağın və benzinin xərc strukturuna diqqət yetirsək görərik ki, orada əsas xərc vergilərdir. Dövlət Neft Şirkəti üçün bir barel neftin orta qiyməti 15 dollardır. Bu isə o deməkdir ki, dünya bazarında neftin qiymətinin hansı həddə olmasından asılı olmayaraq, Dövlət Neft Şirkəti bir barel nefti orta hesabla 15 dollara hasil edir. Bu səbəbdən dünya bazarında neftin qiymətinin 28 dollar olmasının önəmi yoxdur, söhbət neftin dünya bazarındakı qiymətində də iki dəfə aşağı olan xərcdən gedir. Buna görə də benzinin 70 qəpikdən 50 qəpiyə endirilməsi Dövlət Neft Fondunun gəlirlərinə təsir göstərməyəcək. Dövlət Neft Şirkəti onsuz da 15 dollara başa gələn bir barel xam nefti benzinə çevirərək gəlir əldə edir. Sadəcə olaraq, Tarif Şurası vergiləri azaltmaqla, benzinin qiymətinə müsbət təsir edə bilər. Düzdür, burada büdcə daxilolmalarının azalması müşahidə ediləcək. Lakin bu, narahatlıq doğurmamalıdır. Bizim model qiymətləndirmələrimiz onu göstərir ki, benzinin ucuzlaşması başqa sektorlara müsbət təsir edəcək, həmin sektorlardan vergi ödənişlərinin həcmi artacaq. Nəqliyyatda, beynəlxalq yükdaşımalarda, iqtisadiyyata təsir edən əsas sektorlarda büdcə ödənişlərinin həcminin artması avtomatik olaraq, benzinin ucuzlaşması ilə azalan gəlirləri kompensasiya edir. Bütün bunları nəzərə alsaq, benzinin qiymətinin aşağı salınması indiki durumda olduqca vacibdir".

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Paşayeva Narıngül İdris qızının adına olan, Sabunçu rayon Bakıxanov qəsəbəsi, Leyla Məmmədbəyov küçəsi ev 46, 2 saylı mənzilin sənədi itdiyi üçün etibarsız sayılır.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

YENİ MÜSAVAT

Son səhifə

N 15 (6336) 22 yanvar 2016



## Uşaqlara deyilməyəcək 10 cümlə

Araşdırmalara görə, uşaq psixoloqları körpələrdə travma olmaması üçün valideynlərə bəzi cümlələri işlətməməyi məsləhət görürlər.

Onların fikrincə, körpənin neçə yaşının olması əhəmiyyətli deyil - o artıq hər şeyi, hətta səs tonunu belə ayırd edir. Uşaqlara ən çox deyilən 10 cümlə və onların əvəzinə deyilməli olan məsləhətlər bunlardır (siz.az):

- Heç nəyi bacara bilmirsən, əlindən bir iş gəlmir (Özün etməyə çalış, əgər yardıma ehtiyacın olsa, mənə güvənə bilərsən);

- Al, götür, təki sakit ol! (Başa düşürəm ki, çox istəyirsən..., amma bilirsən ki, bunu sənə icazə verə bilmərəm);

- Əgər bir də belə etdiyini görsəm - sən görərsən! (Mən sənə bu işin nəticəsi barədə xəbərdarlıq etmişdim, buna görə də incimə, gərək verdiyim sözü tutum);

- Dedim ki, dərhal dur gözlə! (Mən görürəm ki, bikefsən, bu haqda sən sakitləşdikdən sonra danışarıq);

- Bunu anlamalısan ki... (Bu barədə fikrini dinləməyə hazıram, - Gəl, səninlə bir az gəzək, rəsm çəkək);

- Oğlanlar (qızlar) özləri ni bu cür aparmır! (Doğurdanmı, bu sənin xoşuna gəlir?);

- Boş şeyə görə məyus olma! (Bilirəm, sənə necə ağır gəlir, mən də sənin yerində olsaydım, bikef olardım);

- Sağlamlığımı qoru! (Ana hər zaman xəstələndiyi haqda uşağa yalan deməməlidir);

- Yox, bunu almayacağıq - pul yoxdur! (Sənin bu cür oyuncağın artıq var, çox şokolad yemək ziyandır);

- Hamının uşaqları uşaq kimidir, sən isə... (Mən sənin yaxşı tərəfini də, pis tərəfini də sevirəm).

# Bu ölkədə mini yubka qadağan edildi

Tanzaniyanın prezidenti Con Maguful HİV və AİDS-in yayılmasına səbəb olduğunu iddia edərək, mini yubka və qısa paltarı qadağan edib. O, qadınlara "əxlaqsız paltarlar"dan qurtulmaq üçün 3 həftə vaxt verib. Ölkədə bir neçə ay əvvəl də əxlaqsız olduğu üçün "yverking" rəqsini qadağan etmişdi. Bir çoxları bu rəqsin gənclərə pis təsir etdiyini deyib. Ölkə prezidenti hökumət üzvləri üçün Yeni il kartlarının hazırlanmasını da istəməmişdi. Ölkədə bayramlardan əldə edilən gəlirlər zibillərin yığılması üçün xərclənəcək. Bir çox sahələrdən gələn gəlirlər isə xəstəxanalara yataq alınmasına sərf ediləcək. Prezident dövlət məmurlarının xarici səfərlərini, başqa ölkələrdə pul xərcləməsini qadağan edib. Əgər xarici səfərlər məcburi olarsa, məmurlar təyyarədə adi sərnişinlərlə birlikdə uçmalıdırlar. "Business class" uçuşlar qadağan edilib.



# Şimali Koreyadan yeni ixtira

Şimali Koreya spirtli içki sahəsində özünəməxsus inqilab edib. Hazırladıqları yeni içki tərkibində olan maddələr sayəsində insanın səhhətini korlamayacaq. Bu içkini qəbul edib yatan insanlarda sonradan baş ağrı və ürək bulanma kimi narahatlıqlar, yeni "paxmel" adlandırılan vəziyyət olmayacaq. Ötən il xərçəng, Ebola və QİÇS-ə çarə tapdığını bildirən bu ölkə indi də düyüdən hazırlanan bir içki ixtira edib. Dadı ilə seçilən bu içkinin hazırlanmasında yandırılmış düyüdən istifadə edilir. "Koryo" adlanan içkinin hazırlanması və ərsəyə gəlməsi üçün uzun zaman tələb edilir. Ötən il Kim Çen İnin himayəsi ilə şimali koreyalı alimlər QİÇS, Ebola, MERS-i müalicə edə biləcək möcüzəvi bir dərman icad etdiklərini iddia edirdilər. Onlar bu dərmanı jenşen ttps://tr.wikipedia.org/wiki/Ginseng bitkisindən və adlarını sadalamadıqları başqa maddələrdən hazırladıqlarını deyirdilər. Şimali Koreya dünyada ən çox jenşen bitkisi ixracatçılarından biridir.






## Ən təhlükəli 10 şifrə

"SplashData" adlı firma asan tapıldığı üçün istifadə edilməsi doğru olmayan 10 şifrəni açıqlayıb. Amerikada yerləşən firma 2015-ci ildə ən çox istifadə edilən bu şifrələrin təhlükəli olduğunu da bildirib. "İndependent"in xəbərinə görə həmin şifrələr bunlardır:

1. 123456
2. password
3. 12345678
4. qwerty
5. 12345
6. 123456789
7. football
8. 1234
9. 1234567
10. baseball




QOÇ - İxtiyarınızda olan bu günü çox rahat şəkildə başa vuracaqsınız. Maddi müstəvidə qazanmaq imkanlarınız da var. Ən başlıcası, ulduzlar aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir.

BUĞA - Çalışın ki, fəaliyyət və qarşılıqlı münasibətlərdə yanlışlığa yol verməyəsiniz. Əks təqdirdə, ciddi problemlərlə rastlaşa bilərsiniz. Bu gün mənəvi dəyərlərə və hörmət qazanmağa daha çox üstünlük verin.

ƏKİZLƏR - Əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, gələcək perspektivlərinizə yol açılsın. Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz və təşəbbüskarlığı əldə saxlayasınız.

XƏRÇƏNG - Bu təqvimdə gücünüz artdığından bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməlisiniz. Yalnız maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun. Nahardan sonra uzaq səfərə çıxmaq planlarınızı gerçəkləşdirin.

ŞİR - Dəyişkən fikirli insanlarla hər hansı bir işbirliyinə getməyin. Özünüzü qiymətli tutun. Saat 10-11 və 17-19 aralığında ağlınız kəsməyən bütün müzakirələrdən vaz keçin. Axşam gəzintisi yaxşı olar.

QIZ - Ürəyinizdən Tanrı eşqini çıxarmayın, müqəddəs yerlərə baş çəkin, ətrafınızda olan hər kəsə xeyirxahlıq göstərin. Yalnız bu halda uğurlarınız arta bilər. Bu gün uzaq səfərləri mümkün qədər təxirə salın.

TƏRƏZİ - Köhnə mübahisələrə, yarımtəmiz tərəfdaşlarla haqq-hesab çürütməyə vaxt itirməyin. Yalnız böyük ideyalarınız barədə düşünün. Bunu bacarsanız, saat 15-dən o tərəfə uğurlar sizi müşayiət edəcək.

ƏQRƏB - Astroloji göstəricilər əsəblərinizin xeyli sakitləşdiyindən xəbər verir. Bu isə böyük işlər görməyinizə stimul verəcək. Odur ki, proqnozumuzdan xəbər tutan dəqiqədən hərəkətə keçin. Riskdən qorxmayın.

OXATAN - İstənilən situasiyada reallığa uyğun addım atın. Hər hansı qərəz nümayişi yolverilməzdir. Bu gün üzərinizə ağır öhdəliklər də götürməyin ki, dostlar yanında nüfuzdan düşməyəsiniz.

OĞLAQ - Artıq dağı dağ üstünə qoymağa zəmin yaranıb. İnandığınız adamların köməyilə öz hədəfinizə çatmaqda çətinliyiniz olmayacaq. Xüsusən də saat 13-17 aralığı sizin üçün çox düçərli olmalıdır.

SUTÖKƏN - Bürcünüzün Zodiakda möhkəmlənməsi sizə əlavə stimul verəcək. Amma gərək riskli addımlardan çəkinəsiniz. Saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Qidanıza fikir verin.

BALIQLAR - Qarşınızda neytral bir gün durur. Hər hansı sürpriz və ya uğursuzluq gözlənilmir. Yaxşı olar ki, gün ərzində yalnız adi işlərin həlli ilə məşğul olasınız. Yaxın məsafəyə səfər etmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ərinin sevgilisini körpüdən atdı



Braziliyada mobil telefonla qeydə alınmış videogörüntülərdə əsəbi qadının ərinin sevgilisini döydüyü açıqca görünür. Adı açıqlanmayan qadın ərinin sevgilisi olduğunu iddia etdiyi qadını dayanmadan əzişdirir. Qadın döyülməkdən xilas olmağa çalışsa da, əlindən heç nə gəlmir. Xəyanətə uğrayan qadın onu saçından tutaraq küçədə sürüyür. Bütün bunlara baxmayaraq, sakitləşə bilməyən qadın döydüyü həmcinsini bir körpünün üzərinə gətirib oradan aşağı atıb. Gənc qadının səhhətinin necə olduğu haqda heç bir məlumat yoxdur.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300